QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 064 (5784) **11 aprel** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Hər bir azərbaycanlının Prezidenti!



Səh 5

4

**Dövlət Komitəsi: Yanğın zamanı ziyan dəymiş 23 mənzilin sakinlərinə dövlət tərəfindən kirayə pulu veriləcək**



6

**"İşğal olunmuş ərazilərimizdə qeyri-qanuni fəaliyyətlər problemi ilə bağlı tədbirlər davam etdiriləcək"**



8

**Uğurları şərtləndirən amil: İlham Əliyev - Xalq birliyi**



# Hafiz Paşayev Macarıstanın ali ordeni ilə təltif edilib




Azərbaycanın xarici işlər nazirinin müavini, ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev Macarıstanın ali ordeni ilə təltif olunub.

Universitetdən AZƏRTAC-a bildirilib ki, "Macarıstanın Xidmətlərinə görə Komandor Xaçı"nı Hafiz Paşayevə Macarıstanın Azərbaycandakı səfiri Viktor Sederkenyi təqdim edib. ADA Universitetində keçirilən mərasimdə səfir ölkəsinin Prezidenti Yanoş Aderin adından təbrikləri çatdırıb və mükafatı təqdim edib. O vurğulayıb ki, Hafiz Paşayev bu ali ordenə Macarıstan-Azərbaycan əməkdaşlığının strateji səviyyəyə çatdırılması, ölkələrimiz arasında mədəni və elmi sahədə münasibətlərin möhkəmləndirilməsində töhfəsinə görə layiq görülüb.

Mükafata görə təşəkkürünü ifadə edən Hafiz Paşayev bildirib ki, ali ordeni bütün ADA Universiteti adından qəbul edir və bundan sonra iki ölkənin elmi icmasını yaxınlaşdırmaq üçün daha həvəslə səy göstərəcək. O deyib: "Hər iki tərəf üçün mümkün sayda çox tələbə təhsillləndirmək vacibdir ki, gələcəyimiz əmin əllərdə olsun".

Mərasimdən sonra işçi görüş zamanı səfir Viktor Sederkenyi bu günlərdə Azərbaycana səfər edən Macarıstanın xarici siyasət və ticarət naziri Peter Siyartonun ADA Universitetindəki çıxışı barədə yüksək təəssüratını bölüşüb. O qeyd edib ki, nazir ADA-nın tələbə və müəllim heyəti qarşısındakı çıxışını və daha sonra dinamik sual-cavab sessiyasını səfərinin yaddaqalan hissəsi kimi xatırlayır.

Rektor Hafiz Paşayev səfirlə söhbəti zamanı hələ Sovet İttifaqı dövründə Macarıstana alim kimi etdiyi mübadilə səfərini xatırlayıb və bildirib ki, Macarıstan elmi, xüsusilə də nüvə fizikası sahəsi yüksək səviyyəli mütəxəssisləri ilə seçilirdi.

Tərəflər ADA Universitetinin Macarıstanın hazırda üç ali təhsil ocağı ilə imzaladığı əməkdaşlıq anlaşmalarının nəticələrini nəzərdən keçirib, artan sayda tələbə və müəllim heyəti üzvünün mübadilə proqramlarında iştirakını məmnunluqla qeyd ediblər. Vurğulanıb ki, ADA Macarıstan universitetlərinə 27 nəfər göndərməklə, qarşı tərəfin 7 tələbəsini mübadilə semestrlərinə qəbul edib. Tərəflər bu rəqəmləri daha da artıracaqlarını bildirilər. ADA Universitetində Vışeqrad Qrupunun 25 illik yubileyinin elmi konfransla qeyd edilməsi də əməkdaşlığın uğurlu nəticələrindən biri kimi qeyd olunub.

# Nazirlər Kabineti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın iclası keçirilib



Aprelin 10-da Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda komissiyanın üzvləri və aidiyyəti qurumların nümayəndələri iştirak ediblər.

Baş nazirin müavini, komissiyanın sədri Əli Əhmədov iclasın gündəliyində üç məsələnin olduğunu bildirib. Bunlar uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair ölkə üzrə 2018-ci il üçün hesabatın müzakirəsi, 2019-cu ildə monitorinq keçirilməsi nəzərdə tutulan dövlət uşaq müəssisələrinin siyahısının təsdiq edilməsi və komissiyanın nəzdində yaradılan işçi qrupun tərkibinin təsdiq edilməsi məsələləridir.

Uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair ölkə üzrə 2018-ci il üçün hesabatla çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova uşaqlarla işin vacibliyini bildirib. Qeyd edib ki, bu işdə əsas rol valideynlərin üzərinə düşür.

Qeyd edək ki, Azərbaycanda uşaq hüquqlarının həyata keçirilməsi və bu istiqamətdə müvafiq tədbirlərin görülməsi müxtəlif qurumlar tərəfindən aparılır. Bu qurumların gördüyü işlərə və onların fəaliyyətinin əlaqələndirilməsinə isə Nazirlər Kabineti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiya baxır.

## Çingiz Əsgərov: "Avropa Məhkəməsi Dilqəm Əsgərovun və Şahbaz Quliyevin işi ilə bağlı tezliklə qərar qəbul edəcək"



Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin təşkilatçılığı ilə çox vacib mövzu ilə bağlı panel iclas keçirildi. Tədbirdə Avropa Məhkəməsinin bəzi qərarları haqqında məlumat verdim, "Çıraqov və başqaları Ermənistana qarşı" işinə toxundum. Bu işlə bağlı Avropa Məhkəməsinin qərarında birmənalı olaraq göstərilib ki, Ermənistan işğal altındakı ərazilərdə olan vəziyyətə görə tam məsuliyyət daşıyır. Onun birbaşa iştirakı ilə Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf 7 rayonu işğal olunub.

Bu fikirləri "Azərbaycanın işğal olunmuş ərazilərində və onlara münasibətdə qanunsuz fəaliyyətlər: Avropa Şurası qarşısında götürülmüş öhdəliklər baxımından nəticələr" adlı panel iclasında çıxış etmiş Avropa Məhkəməsi yanında Azərbaycanın səlahiyyətli nümayəndəsi Çingiz Əsgərov AZƏRTAC-a müsahibəsində söyləyib.

Çingiz Əsgərov qeyd edib ki, təkcə Azərbaycan vətəndaşlarının deyil, eyni zamanda, Ermənistan vətəndaşlarının da Ermənistana qarşı verdikləri şikayətlərlə bağlı qərarlarda bu ölkənin dövlət orqanlarının işğal altında olan ərazilərdə mövcudluğu, fəaliyyət göstərmələri müəyyən edilib. Ermənistan vətəndaşlarının verdikləri şikayətlər əsasında müəyyən edilib ki, bu ölkənin vətəndaşları işğal altında olan torpaqlarda hərbi xidmətdə olurlar.

2016-cı ilin Aprel döyüşlərindən sonra şikayətlərin əksəriyyəti Ermənistan vətəndaşları tərəfindən verilib və bu da bir daha göstərir ki, işğal olunmuş ərazilərdə Ermənistan vətəndaşları yaşayır. Bu, bir daha Ermənistanın torpaqlarımızı işğal etdiyini göstərir. Ermənistan daha deyə bilməz ki, hansısa separatçı respublika mövcuddur. Azərbaycan dövlətinin ərazilərinin işğalında Ermənistan birbaşa məsuliyyət daşıyır. "Ermənistan tərəfindən girov götürülmüş Dilqəm Əsgərov və Şahbaz Quliyev ilə bağlı da Avropa Məhkəməsinə şikayət verilib. Məhkəmə tezliklə bu işlə əlaqədar qərar qəbul edəcək. Bu iki mülki azərbaycanlının Ermənistanda girovluqda keçən hər günü işgəncə altında olan gün kimi hesab edilir. Onların işi üzrə tezliklə qərar qəbul ediləcək", - deyə Ç.Əsgərov vurğulayıb.

## 10 milyonuncu Azərbaycan vətəndaşına doğum haqqında şəhadətnamə təqdim olunub



Aprelin 6-da dünyaya gələn 10 milyonuncu Azərbaycan vətəndaşı Mehriban Həsənovaya bu gün doğum haqqında şəhadətnamə təqdim olunub. Trend-in məlumatına görə, şəhadətnamə Ədliyyə Nazirliyinin Bakı şəhər Nərimanov rayonunun qeydiyyat şöbəsində təntənəli şəkildə təqdim edilib.

Qeyd edək ki, ötən gün Azərbaycan Prezidenti İlham Əliyev birinci xanım Mehriban Əliyeva ilə birgə Respublika Perinatal Mərkəzinə gələrək 10 milyonuncu sakin Mehriban Həsənovanın valideynləri Rauf Həsənov və Nigar Ocaqova ilə görüşüb. Görüşdə Mehriban Həsənovanın hesabına vəsait köçürüldüyü bildirilib və sertifikat təqdim olunub.

Bundan başqa, uşağın valideynlərinə dövlət tərəfindən mənzil hədiyyə olunub. Onlara mənzilin çıxarışı və hədiyyələr də təqdim edilib.

## Natalino Ronzitti: "İşğal olunmuş ərazilərdə qeyri-qanuni fəaliyyət beynəlxalq hüquqa ziddir"

İşğal altında olan ərazilərdə qeyri-qanuni fəaliyyət beynəlxalq hüquqa ziddir. Bu ərazilərdəki təbii sərvətlərdən istifadə qadağan edilir. Bu fikri AŞPA-nın yaz sessiyası çərçivəsində keçirilmiş "Azərbaycanın işğal olunmuş ərazilərində və onlara münasibətdə qanunsuz fəaliyyətlər: Avropa Şurası qarşısında götürülmüş öhdəliklər baxımından nəticələr" adlı panel iclasın iştirakçılarından olan Beynəlxalq Hüquq İnstitutunun üzvü, İtaliyanın Guido Carli LUİSS Universitetinin beynəlxalq hüquq üzrə professoru Natalino Ronzitti AZƏRTAC-a müsahibəsində söyləyib.

İtaliyalı professor Avropa Məhkəməsinin "Çıraqov və başqaları Ermənistana qarşı" işinə dair qərarına toxunub. Bildirib ki, bu qərarda Ermənistanın məsuliyyət daşıdığı göstərilib. Natalino Ronzitti məhkəmə qərarlarına riayət etməyən ölkələrlə bağlı qeyd edib ki, belə ölkələrə beynəlxalq hüquqa uyğun olaraq sanksiyalar tətbiq edilməlidir. N.Ronzitti vurğulayıb ki, BMT Təhlükəsizlik Şurası, eləcə də ATƏT mandatlarına uyğun olaraq mövcud münaqişənin həlli ilə məşğul olub sülhün bərpasına səy göstərməlidirlər.

# Hafiz Paşayev Macarıstanın ali ordeni ilə təltif edilib



Azərbaycanın xarici işlər nazirinin müavini, ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev Macarıstanın ali ordeni ilə təltif olunub.

Universitetdən AZƏRTAC-a bildirilib ki, "Macarıstanın Xidmətlərinə görə Komandor Xaçı"nı Hafiz Paşayevə Macarıstanın Azərbaycandakı səfiri Viktor Sederkenyi təqdim edib. ADA Universitetində keçirilən mərasimdə səfir ölkəsinin Prezidenti Yanoş Aderin adından təbrikləri çatdırıb və mükafatı təqdim edib. O vurğulayıb ki, Hafiz Paşayev bu ali ordenə Macarıstan-Azərbaycan əməkdaşlığının strateji səviyyəyə çatdırılması, ölkələrimiz arasında mədəni və elmi sahədə münasibətlərin möhkəmləndirilməsində töhfəsinə görə layiq görülüb.

Mükafata görə təşəkkürünü ifadə edən Hafiz Paşayev bildirib ki, ali ordeni bütün ADA Universiteti adından qəbul edir və bundan sonra iki ölkənin elmi icmasını yaxınlaşdırmaq üçün daha həvəslə səy göstərəcək. O deyib: "Hər iki tərəf üçün mümkün sayda çox tələbə təhsilləndirmək vacibdir ki, gələcəyimiz əmin əllərdə olsun".

Mərasimdən sonra işçi görüş zamanı səfir Viktor Sederkenyi bu günlərdə Azərbaycana səfər edən Macarıstanın xarici siyasət və ticarət naziri Peter Siyartonun ADA Universitetindəki çıxışı barədə yüksək təəssüratını bölüşüb. O qeyd edib ki, nazir ADA-nın tələbə və müəllim heyəti qarşısındakı çıxışını və daha sonra dinamik sual-cavab sessiyasını səfərinin yaddaqalan hissəsi kimi xatırlayır.

Rektor Hafiz Paşayev səfirlə söhbəti zamanı hələ Sovet İttifaqı dövründə Macarıstana alim kimi etdiyi mübadilə səfərini xatırlayıb və bildirib ki, Macarıstan elmi, xüsusilə də nüvə fizikası sahəsi yüksək səviyyəli mütəxəssisləri ilə seçilirdi.

Tərəflər ADA Universitetinin Macarıstanın hazırda üç ali təhsil ocağı ilə imzaladığı əməkdaşlıq anlaşmalarının nəticələrini nəzərdən keçirib, artan sayda tələbə və müəllim heyəti üzvünün mübadilə proqramlarında iştirakını məmnunluqla qeyd ediblər. Vurğulanıb ki, ADA Macarıstan universitetlərinə 27 nəfər göndərməklə, qarşı tərəfin 7 tələbəsini mübadilə semestrlərinə qəbul edib. Tərəflər bu rəqəmləri daha da artıracaqlarını bildiriblər. ADA Universitetində Vışeqrad Qrupunun 25 illik yubileyinin elmi konfransla qeyd edilməsi də əməkdaşlığın uğurlu nəticələrindən biri kimi qeyd olunub.

# Nazirlər Kabineti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın iclası keçirilib



Aprelin 10-da Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda komissiyanın üzvləri və aidiyyəti qurumların nümayəndələri iştirak ediblər.

Baş nazirin müavini, komissiyanın sədri Əli Əhmədov iclasın gündəliyində üç məsələnin olduğunu bildirib. Bunlar uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair ölkə üzrə 2018-ci il üçün hesabatın müzakirəsi, 2019-cu ildə monitorinq keçirilməsi nəzərdə tutulan dövlət uşaq müəssisələrinin siyahısının təsdiq edilməsi və komissiyanın nəzdində yaradılan işçi qrupun tərkibinin təsdiq edilməsi məsələləridir.

Uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair ölkə üzrə 2018-ci il üçün hesabatla çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova uşaqlarla işin vacibliyini bildirib. Qeyd edib ki, bu işdə əsas rol valideynlərin üzərinə düşür.

Qeyd edək ki, Azərbaycanda uşaq hüquqlarının həyata keçirilməsi və bu istiqamətdə müvafiq tədbirlərin görülməsi müxtəlif qurumlar tərəfindən aparılır. Bu qurumların gördüyü işlərə və onların fəaliyyətinin əlaqələndirilməsinə isə Nazirlər Kabineti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiya baxır.

## 10 milyonuncu Azərbaycan vətəndaşına doğum haqqında şəhadətnamə təqdim olunub



Aprelin 6-da dünyaya gələn 10 milyonuncu Azərbaycan vətəndaşı Mehriban Həsənovaya bu gün doğum haqqında şəhadətnamə təqdim olunub. Trend-in məlumatına görə, şəhadətnamə Ədliyyə Nazirliyinin Bakı şəhər Nərimanov rayonunun qeydiyyat şöbəsində təntənəli şəkildə təqdim edilib.

Qeyd edək ki, ötən gün Azərbaycan Prezidenti İlham Əliyev birinci xanım Mehriban Əliyeva ilə birgə Respublika Perinatal Mərkəzinə gələrək 10 milyonuncu sakin Mehriban Həsənovanın valideynləri Rauf Həsənov və Nigar Ocaqova ilə görüşüb. Görüşdə Mehriban Həsənovanın hesabına vəsait köçürüldüyü bildirilib və sertifikat təqdim olunub.

Bundan başqa, uşağın valideynlərinə dövlət tərəfindən mənzil hədiyyə olunub. Onlara mənzilin çıxarışı və hədiyyələr də təqdim edilib.

## Çingiz Əsgərov: "Avropa Məhkəməsi Dilqəm Əsgərovun və Şahbaz Quliyevin işi ilə bağlı tezliklə qərar qəbul edəcək"



Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin təşkilatçılığı ilə çox vacib mövzu ilə bağlı panel iclas keçirildi. Tədbirdə Avropa Məhkəməsinin bəzi qərarları haqqında məlumat verdim, "Çıraqov və başqaları Ermənistana qarşı" işinə toxundum. Bu işlə bağlı Avropa Məhkəməsinin qərarında birmənalı olaraq göstərilib ki, Ermənistan işğal altındakı ərazilərdə olan vəziyyətə görə tam məsuliyyət daşıyır. Onun birbaşa iştirakı ilə Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf 7 rayonu işğal olunub.

Bu fikirləri "Azərbaycanın işğal olunmuş ərazilərində və onlara münasibətdə qanunsuz fəaliyyətlər: Avropa Şurası qarşısında götürülmüş öhdəliklər baxımından nəticələr" adlı panel iclasında çıxış etmiş Avropa Məhkəməsi yanında Azərbaycanın səlahiyyətli nümayəndəsi Çingiz Əsgərov AZƏRTAC-a müsahibəsində söyləyib.

Çingiz Əsgərov qeyd edib ki, təkcə Azərbaycan vətəndaşlarının deyil, eyni zamanda, Ermənistan vətəndaşlarının da Ermənistana qarşı verdikləri şikayətlərlə bağlı qərarlarda bu ölkənin dövlət orqanlarının işğal altında olan ərazilərdə mövcudluğu, fəaliyyət göstərmələri müəyyən edilib. Ermənistan vətəndaşlarının verdikləri şikayətlər əsasında müəyyən edilib ki, bu ölkənin vətəndaşları işğal altında olan torpaqlarda hərbi xidmətdə olurlar.

2016-cı ilin Aprel döyüşlərindən sonra şikayətlərin əksəriyyəti Ermənistan vətəndaşları tərəfindən verilib və bu da bir daha göstərir ki, işğal olunmuş ərazilərdə Ermənistan vətəndaşları yaşayır. Bu, bir daha Ermənistanın torpaqlarımızı işğal etdiyini göstərir. Ermənistan daha deyə bilməz ki, hansısa separatçı respublika mövcuddur. Azərbaycan dövlətinin ərazilərinin işğalında Ermənistan birbaşa məsuliyyət daşıyır. "Ermənistan tərəfindən girov götürülmüş Dilqəm Əsgərov və Şahbaz Quliyev ilə bağlı da Avropa Məhkəməsinə şikayət verilib. Məhkəmə tezliklə bu işlə əlaqədar qərar qəbul edəcək. Bu iki mülki azərbaycanlının Ermənistanda girovluqda keçən hər günü işgəncə altında olan gün kimi hesab edilir. Onların işi üzrə tezliklə qərar qəbul ediləcək", - deyə Ç.Əsgərov vurğulayıb.

## Natalino Ronzitti: "İşğal olunmuş ərazilərdə qeyri-qanuni fəaliyyət beynəlxalq hüquqa ziddir"

İşğal altında olan ərazilərdə qeyri-qanuni fəaliyyət beynəlxalq hüquqa ziddir. Bu ərazilərdəki təbii sərvətlərdən istifadə qadağan edilir. Bu fikri AŞPA-nın yaz sessiyası çərçivəsində keçirilmiş "Azərbaycanın işğal olunmuş ərazilərində və onlara münasibətdə qanunsuz fəaliyyətlər: Avropa Şurası qarşısında götürülmüş öhdəliklər baxımından nəticələr" adlı panel iclasın iştirakçılarından olan Beynəlxalq Hüquq İnstitutunun üzvü, İtaliyanın Guido Carli LUİSS Universitetinin beynəlxalq hüquq üzrə professoru Natalino Ronzitti AZƏRTAC-a müsahibəsində söyləyib.

İtaliyalı professor Avropa Məhkəməsinin "Çıraqov və başqaları Ermənistana qarşı" işinə dair qərarına toxunub. Bildirib ki, bu qərarda Ermənistanın məsuliyyət daşıdığı göstərilib. Natalino Ronzitti məhkəmə qərarlarına riayət etməyən ölkələrlə bağlı qeyd edib ki, belə ölkələrə beynəlxalq hüquqa uyğun olaraq sanksiyalar tətbiq edilməlidir. N.Ronzitti vurğulayıb ki, BMT Təhlükəsizlik Şurası, eləcə də ATƏT mandatlarına uyğun olaraq mövcud münaqişənin həlli ilə məşğul olub sülhün bərpasına səy göstərməlidirlər.



## Dövlət Komitəsi: Yanğın zamanı ziyan dəymiş 23 mənzilin sakinlərinə dövlət tərəfindən kirayə pulu veriləcək

***Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi aprelin 10-da Bakıda, Babək prospektində məcburi köçkünlərin məskunlaşdıqları binada baş verən yanğınla əlaqədar məlumat yayıb.***

Komitənin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu barədə xəbər alındıqdan dərhal sonra Baş nazirin müavini Əli Əhmədov, Dövlət Komitəsinin sədri Rövşən Rzayev, sədr müavinləri və digər məsul işçilər hadisə yerində olublar. Yanğın baş verdikdən sonra Dövlət Komitəsi tərəfindən yaradılmış komissiya hadisə yerinə gedib, siyahıyaalınma aparılıb.

Qeyd edək ki, yanğın binanın üçüncü mərtəbəsində dəhlizdə baş verib. Yanğının söndürülməsi zamanı sudan ziyan çəkmiş 23 mənzildə yaşayan məcburi köçkünlərə dövlət tərəfindən kirayə pulu veriləcək.

Yanğın zamanı yanğınsöndürənlər tərəfindən biri azyaşlı olmaqla 2 nəfər xilas edilib, 10 sakin təxliyə olunub. Hadisə nəticəsində 2 nəfər xəsarət alıb. Xəsarət alan şəxslərdən birinə hadisə yerində, digərinə xəstəxanada ilkin tibbi yardım göstərilib.

Fövqəladə Hallar Nazirliyi yanğının başvermə səbəblərini araşdırır, dəymiş ziyan müəyyənləşdirilir. Araşdırmalardan sonra yekun rəy veriləcək. Rəy əsasında müvafiq hüquqi addımlar atılacaq.

## Baş nazir Mamuka Baxtadze: "Gürcüstan və Azərbaycan strateji tərəfdaşlardır"

Gürcüstanın və Azərbaycan strateji tərəfdaşlardır. Hər iki ölkə tarixi layihələrin həyata keçirilməsinə birgə imza atıblar. Bakı-Tbilisi-Ceyhan neft boru kəməri, Cənub Qaz Dəhlizi kimi böyük enerji layihələri mühüm əhəmiyyət daşıyır. Bu gün də vacib infrastruktur layihələri həyata keçiririk. Xəzər dənizinin sərvətlərindən, imkanlarından daha çox bəhrələnməklə, Avropanın enerji təhlükəsizliyini daha çox təmin edə bilərik. Azərbaycanla birlikdə böyük layihələrdə iştirakımızdan çox məmnunuq.



AZƏRTAC xəbər verir ki, bu fikirləri AŞPA-da Gürcüstanın Baş naziri Mamuka Baxtadze Azərbaycan nümayəndə heyətinin üzvü Qənirə Paşayevanın sualına cavabında bildirib.

Azərbaycanlı deputat Gürcüstanın Baş nazirinə müraciət edərək deyib: "Müstəqilliklərini bərpa edəndən bəri Azərbaycan və Gürcüstan dövlətləri tarixi dostluqlarını daha da möhkəmləndirib və güclü əməkdaşlıq qurublar. Qarşılıqlı möhkəm etimada əsaslanaraq Bakı-Tbilisi-Ceyhan neft kəməri və son dövrlərin Cənub Qaz Dəhlizi kimi mühüm regional enerji layihələri uğurla həyata keçirilib. Bu gün bu əməkdaşlıq Türkiyə ilə birlikdə Xəzər hövzəsindən karbohidrogen ehtiyatlarının Avropa bazarına təhlükəsiz daşınmasını təmin edir. Necə düşünürsünüz, bizim ölkələr Avropa qitəsinin enerji təhlükəsizliyinə bundan başqa hansı töhfə verə bilərlər?".

# ADPU-da professor Nizami Xudiyevin 70 illik yubileyi qeyd edilib






***Aprelin 10-da Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) görkəmli dilçi-alim, tanınmış ictimai-siyasi xadim, filologiya fakültəsinin Azərbaycan dilçiliyi kafedrasının müdiri, professor, Əməkdar elm xadimi Nizami Xudiyevin 70 illik yubileyinə və elmi-pedaqoji fəaliyyətinin 50 illiyinə həsr olunmuş tədbir keçirilib.***

Mərasim iştirakçıları əvvəlcə professor N.Xudiyevin əsərlərinin təqdim edildiyi sərgi ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, tədbiri giriş sözü ilə açan ADPU-nun rektoru, professor Cəfər Cəfərov professor N.Xudiyevin elmi-pedaqoji fəaliyyətindən danışıb. Rektor dövlətimizin başçısının N.Xudiyevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında 2019-cu il 4 aprel tarixli Sərəncamını universitetin kollektivinə verilən yüksək qiymət kimi dəyərləndirib.

Qeyd olunub ki, N.Xudiyev hələ pedaqoji institutda təhsil aldığı illərdə "Nizami Gəncəvi" adına fərdi təqaüdə layiq görülüb. O, 1978-ci ildə namizədlik, 1990-cı ildə doktorluq dissertasiyası müdafiə edib, 1994-1996-cı illərdə ADPU-nun rektoru olub. 1996-2006-cı illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinə rəhbərlik edib. Milli Məclisin deputatı olduğu dövrdə dövlət quruculuğu, iqtisadi islahatlar, mədəniyyət və təhsil sahəsində qanun layihələrinin müzakirəsində tutarlı təklif və mülahizələri ilə həmişə seçilib. Dövlət, hökumət və parlament nümayəndə heyətlərinin tərkibində dəfələrlə xarici ölkələrdə respublikamızı ləyaqətlə təmsil edib.

Dövlət strukturunda məsul vəzifə tutduğu dövrdə də N.Xudiyev elmi fəaliyyətini davam etdirib, ədəbi dil sahəsində sanballı tədqiqatları ilə Azərbaycan dilçilik elminin inkişafına töhfələr verib. O, 60-dan çox monoqrafiya, dərslik və dərs vəsaitinin, 50-dən artıq sənədli televiziya filminin ssenari müəllifidir. Elmi-kütləvi nəşrlərdə, qəzet və jurnallarda 400-dən çox elmi məqaləsi dərc edilib. Gərgin elmi araşdırmaların məhsulu olan "Azərbaycan ədəbi dilinin təşəkkülü", "Tərsümə ədəbiyyatı və ədəbi dilimiz", "Azərbaycan ədəbi dili tarixi", "Azərbaycan ədəbi dilinin sovet dövrü", "Heydər Əliyev və Azərbaycan dili", "Xalq və dövlət naminə", "Yazıçı dili və üslubu", "Radio, televiziya və ədəbi dil", "Xalqın tarixi haqqı: dilimiz, varlığımız", "Zamanın axarı ilə" (I-II), "Şəxsiyyət və zaman", "Uğurlu yolun layiqli davamçısı", "?AR dünənin, bu günün, sabahın partiyasıdır" və digər fundamental əsərləri N.Xudiyevin Azərbaycan elminə sanballı və əvəzolunmaz töhfəsidir.

N.Xudiyev görkəmli dilçi-alim Əbdüləzəl Dəmirçizadənin 110 illiyinə həsr olunmuş "Professor Ə.Dəmirçizadə dünyası" adlı monoqrafiya hazırlayıb.

Görkəmli alimin bir sıra kitab və məqalələri xarici ölkələrdə - İran, Türkiyə, Rusiya, Almaniya, İraq, İsveçrə, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan və digər ölkələrdə nəşr edilib. O, türkoloq-alim kimi respublikamızda və xaricdə keçirilən türkoloji tədbirlərin - qurultay, beynəlxalq simpozium və elmi konfransların nümayəndəsi olub və bu mötəbər toplantılarda elmi məruzələrlə çıxış edib. Alim Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında fəal iştirakına görə orden və medallarla təltif edilib, bir çox beynəlxalq mükafatlara layiq görülüb.

Tədbirdə N.Xudiyevə 70 illik yubileyi və elmi-pedaqoji fəaliyyətinin 50 illiyi münasibətilə ADPU-nun fəxri fərmanı təqdim olunub.

Filologiya fakültəsinin Müasir Azərbaycan dili kafedrasının müdiri, professor Buludxan Xəlilovun "Professor Nizami Xudiyevin elmi-pedaqoji və ictimai-siyasi fəaliyyəti" mövzusunda məruzəsi dinlənilib.

Baş nazirin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov bildirib ki, N.Xudiyev həm elm sahəsində, həm də ideoloji işçi kimi öz missiyasını layiqincə yerinə yetirib, Azərbaycanın ictimai və siyasi həyatında yaxından iştirak edib.

Sonra Ə.Əhmədov yubilyara YAP adından hədiyyə təqdim edib. Akademiklər İsa Həbibbəyli, Kamal Abdulla, Nizami Cəfərov, Möhsün Nağısoylu, AMEA-nın müxbir üzvü, professor Vəli Əliyev, professorlar Zahid Xəlil, Qulu Məhərrəmli, filologiya üzrə elmlər doktoru İlhami Cəfərsoy çıxış edərək N.Xudiyevin xeyirxah, nəcib, qayğıkeş insan, dəyərli ziyalı, yorulmaz, fədakar alim, yüksək səviyyəli peşəkar mütəxəssis, bacarıqlı elm və təhsil təşkilatçısı, ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edən əsl vətəndaş olduğunu, dövlətə və dövlətçiliyə sədaqətlə xidmət etdiyini bildiriblər və ona uğurlar arzulayıblar.

Tədbirdə Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi sədrinin müavini Mirzə Cəfərzadə N.Xudiyevə komitənin yubiley medalını təqdim edib.

Sonda N.Xudiyev çıxış edərək tədbirin təşkilatçılarına minnətdarlığını bildirib və bundan sonra da xalqa, dövlətə sədaqətlə, vicdanla xidmət edəcəyini vurğulayıb. Yubiley tədbiri Azərbaycanın tanınmış incəsənət ustalarının konsert proqramı ilə davam edib.

# Hər bir azərbaycanlının Prezidenti

***Hər bir xalqın taleyində siyasi lider amili müstəsna əhəmiyyət kəsb edir. Əsl siyasi liderlər cəmiyyətdə siyasi prosesləri istiqamətləndirməklə yanaşı, tarixi inkişafın gedişini müəyyən edən cəlbedici proqram və konsepsiyaların müəllifinə çevrilirlər. Real siyasət də, məhz belə siyasi liderlərin davranışlarına, bütövlükdə, cəmiyyət həyatına təsir göstərən qərarlarına əsaslanır.***

Dünya şöhrətli ictimai-siyasi xadim, Ümummilli Lider Heydər Əliyevin milli maraqları nəzərə almaqla yürütdüyü siyasəti XXI əsrin başlanğıcında bütün sahələrdə layiqincə davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycanın müstəqil dövlət kimi bölgədə və dünyada layiqli yerini tutmasını, regional liderliyini təmin etmişdir.

Azərbaycanı Avratlantika geosiyasi arealında öz sözü və mövqeyi olan, səmərəli iqtisadi təşəbbüslərin müəllifi kimi tanınan dövlətə çevirən Cənab İlham Əliyevin 2003-cü ildən yürütdüyü siyasət dövlət baş-



**Yeni Azərbaycan Partiyası İcra katibinin müavini, Milli Məclisin İctimai Birliklər və Dini Qurumlar Komitəsinin sədri**

çısının xalqın və dövlətin gələcək inkişafı ilə bağlı aydın baxışlara malik olduğunu göstərir. Dövlət başçısı Ulu Öndərin böyük müdrikliklə irəli sürdüyü inkişaf strategiyasını, ötən illərdə inamla davam etdirməklə yanaşı, yeni dövrün tələblərinə uyğun zənginləşdirmiş, sosial-iqtisadi islahatlarla demokratikləşmə proseslərinin paralel şəkildə aparılmasına və birinin digərini tamamlamasına çalışmışdır.

Ötən illərdə həyata keçirilən sosial-iqtisadi islahatların, infrastruktur layihələrinin səmərəli nəticələr verməsi, hər bir fərdin maraq və mənafeyini özündə maksimum dərəcədə əks etdirməsi, dövlətin perspektiv inkişafına hesablanması dövlət başçısı İlham Əliyevin yüksək bilik və intellektə, çevik idarəçilik məharətinə, yüksək əzmə, qətiyyətə malik lider olduğunu bir daha təsdiqləyir. Dövlət başçısının ötən illərdə praqmatizmə və əməli siyasətə söykənən iqtisadi siyasətinin əsas qayəsində, məhz insan amili dayanmış, Cənab İlham Əliyev xalq qarşısında verdiyi bütün vədlərə sadiq qalmaqla, hər bir azərbaycanlının layiqli Prezidenti olduğunu təsdiqləmişdir. "Hər bir məmur xalqın xidmətçisi olmalıdır" deyə hakimiyyəti xalqa layiqli xidmət vasitəsi kimi dəyərləndirən dövlət başçısı hökumətin, mütəmadi olaraq, xalq qarşısında hesabat verməsini, görülən işlər barədə ictimaiyyətin hərtərəfli məlumatlandırılmasını da demokratik idarəetmənin zəruri tələbi kimi önə çəkmişdir.

Respublikamızda, son illər ərzində həyata keçirilən iqtisadi siyasətin sosialyönümlü mahiyyət daşıması, bir sıra reallıqlarla şərtlənərək cəmiyyətin sosial sifarişini əks etdirmişdir. Dəniz səviyyəsindən 3000 metrədək hündürlükdə yerləşən Qubanın Xınalıq kəndinə yolun, sovetlər dövründən mavi yanacaq üzü görməyən Lerik və Yardımlıya qaz kəmərlərinin çəkilməsi, eləcə də, Naxçıvanın, davamlı olaraq, elektrik enerjisi və qazla təmin olunması, Bakıya Oğuz-Qəbələ zonasından su kəmərinin çəkilməsi, rayonlarda yeni təhsil, səhiyyə, mədəniyyət, olimpiya idman komplekslərinin tikintisi, qaçqın düşərgələrinin tamamilə ləğvi, sırf Azərbaycan brendi olan "ASAN xidmət" şəbəkəsinin genişləndirilməsi - bütün bunlar Azərbaycan vətəndaşlarının firavan, rahat yaşamasına xidmət edən qlobal investisiya layihələrinin çox cüzi qismidir.

Ötən illərdə ölkədə uğurla həyata keçirilən siyasət, eyni zamanda, "kosmik dövlətlər klubuna" üzv olan Azərbaycan üçün taleyüklü bir sıra layihələrin gerçəkləşməsini, respublikanın, bütövlükdə, Cənubi Qafqaz regionunda lokomotivinə çevrilməsini təmin etmişdir. Ümummilli Lider Heydər Əliyevin böyük müdrikliklə irəli sürdüyü yeni neft strategiyasının tərkib hissəsi olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin istifadəyə verilməsi nəticəsində, Azərbaycan Avropanın enerji təhlükəsizliyinin başlıca təminatçısına çevrilmiş, ölkəmizin dünya üçün önəmi daha da artmışdır. Ötən il Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi, "Əsrin müqaviləsi"nin yenilənməsi, eləcə də, Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş sazişin imzalanması, bu baxımdan, beynəlxalq əhəmiyyətli hadisə kimi qarşılanır.

Dövlət başçısının son illərdə imzaladığı "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası" və "Milli iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsi" kimi konseptual əhəmiyyətli sənədlər, deməyə əsas verir ki, Cənab İlham Əliyev Azərbaycanın uzunmuddətli inkişaf strategiyasının dərin elmi proqnozlar əsasında işlənib-hazırlanmasına çalışır. Son 3 ildə Azərbaycan Respublikası Prezidentinin İqtisadi İslahatlar üzrə Köməkçisi Xidmətinin, eləcə də, Maliyyə Bazarlarına Nəzarət Palatasının, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin, Maliyyə Sabitliyi və Turizm şuralarının yaradılması iqtisadi islahatların dərin elmi əsaslarla aparılması niyyətinin əyani təzahürüdür.

Aparılan islahatların nəticəsi olaraq, Azərbaycan yeni metodologiya ilə hazırlanan "Qlobal Rəqabətlilik Hesabatı" - 2018/2019" hesabatında dünyada sosial bərabərliyin yüksək səviyyədə təmin olunduğu ölkə kimi qərarlaşmışdır. Azərbaycan əhalinin elektriklə təchizatı səviyyəsinə görə maksimal 100 faiz bal almaqla, dünyada ilk pilləyə yüksəlmişdir. Hesabata əsasən, Azərbaycan dünyanın 140 ölkəsi arasında biznesin dinamikliyi reytinqi üzrə 31-ci yerdə qərarlaşmışdır.



Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar respublikamızın "Doing Business 2019" hesabatında da ümumi reytinqdə yeni rekorda imza atmasına, eləcə də, əksər indikatorlar üzrə mövqeyinin daha üst səviyyəyə qalxmasına imkan vermişdir. Azərbaycan bu hesabatda dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilərək, dünyanın ən çox islahat aparan ölkəsi elan olunmuşdur. Yeni hesabatda Azərbaycanın mövqeyi 2017-ci illə müqayisədə 32 pillə irəliləyərək, 190 ölkə arasında 25-ci yerdə qərarlaşmış, dünyanın bir çox ölkələrini geridə qoymaqla Müstəqil Dövlətlər Birliyi ölkələri arasında lider mövqeyə yüksəlmişdir. Azərbaycanın hesabatda "Vergilərin ödənişi" göstəricisi üzrə 7 pillə irəliləyərək, 28-ci pillədə qərarlaşması da bu sahədə həyata keçirilən uğurlu islahatların nəticəsidir. Yeri gəlmişkən, 2019-cu il yanvarın 1-dən qüvvədə olan Vergi Məcəlləsinə əlavə və dəyişikliklər Azərbaycanda biznes mühitinin sağlamlaşdırılmasına hesablanmışdır. Məsələn, məcəlləyə edilən dəyişikliklə ilk dəfə olaraq, vergidən azad olunan əməkhaqqının məbləği 8.000 manata qədər artırılmışdır. Dövlət və neft-qaz sektorunda çalışanlar, istisna olmaqla, yalnız qeyri-dövlət sektorunda çalışan 500 mindən çox adam bu vergi güzəştlərindən faydalana biləcək və yeddi il onlar əməkhaqqından gəlir vergisi ödəməyəcəklər. 2019-cu ilin büdcəsində gəlir vergisi üzrə daxilolmaların 316 milyon manat azaldılması nəzərdə tutulmuşdur. Bütövlükdə, planlı şəkildə dövlət büdcəsinə vergi daxilolmalarında azalma təxminən 400 milyon manata yaxındır. Bu isə, o deməkdir ki, həmin vəsait sahibkarların və vətəndaşların sərəncamında qalacaqdır.

Hələ 2019-cu ilin əvvəllərində Cənab Prezident ölkədə təxminən 2 milyon 200 inin vətəndaşımızı əhatə edəcək irimiqyaslı sosial-müdafiə paketinin tətbiq ediləcəyi barədə açıqlama vermişdi. Təkcə, son iki ay ərzində, imzalanan sərəncam və fərmanlarda nəzərdə tutulan islahatlar, sadəcə, "hər bir azərbaycanlının prezidenti olmaq" fəlsəfəsinin praktikada uğurla reallaşmasının bariz nümunəsi deyil, həm də bəzi dövlət və dövlət rəhbərlərinin illərlə həll edə bilmədikləri sosial məsələlərin operativ və effektiv həlli nümunəsidir. Belə ki, Prezidentin 2019-cu il 8 fevral tarixli Sərəncamı ilə minimum əmək haqqı 38,5 faiz artırılaraq, 180 manat müəyyən edildi. Bu sərəncam 600 mindən artıq vətəndaşın sosial rifah vəziyyətinə müsbət təsir göstərməklə demək olar ki, inqilabi mahiyyət daşıyır. Onun ardınca isə, dövlət başçısı müxtəlif sferalarda çalışan qulluqçuların əmək haqlarının artırılması ilə bağlı geniş əhatəli sərəncamlar imzaladı. Nəzərə almaq lazımdır ki, bu siyasət son 15 ildə, ümumilikdə, əmək haqları 7, minimum əmək haqqı isə 6,5 dəfə artırılmaqla ardıcıl xarakter daşıyır.

Məlumdur ki, 2015-ci ildə baş vermiş devalvasiyadan sonra vətəndaşların, xüsusən də, aztəminatlı ailələrin banklara xarici valyuta ilə olan borcları onların maddi vəziyyətində müxtəlif çətinliklər yaratmışdı. Cənab Prezident bu dəfə də xalqın səsinə səs verərək, 2019-cu ilin 28 fevral tarixində fiziki şəxslərin xarici valyutada olan problemli kreditlərinin həlli ilə bağlı Fərman imzaladı. Bununla da, 100 minlərlə vətəndaşımızın çiyinlərindəki ağır maddi yük qaldırılmış oldu.

İstər bazar iqtisadiyyatına, istərsə də planlı iqtisadi münasibətlərə sahib olmasından asılı olmayaraq, fors-major hadisələr zamanı vətəndaşa dəyən zərər dövlət və ya özəl sığorta fondları tərəfindən ödənilir. Lakin vətənə və vətəndaşa olan sevgini və qayğını dövlət siyasətinə çevirmiş Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dövləti belə durumlarda sığorta qurumu kimi çıxış edir və vətəndaşların hərtərəfli hamisi rolunu oynayır. Ən son 2019-cu ilin 26 martında "Diqlas" Ticarət Mərkəzində baş vermiş yanğın zamanı dövlət başçımız bir daha öz yüksək humanizmini və prinsipial mövqeyini ortaya qoydu.

Belə ki, imzaladığı Sərəncamla ticarət mərkəzindəki sahibkarlara dəyən bütün zərərin dövlət tərəfindən ödənilməsini təmin etdi.

Hüquqi dövlətin ən mühüm xüsusiyyətlərindən biri vətəndaşa, xüsusən də, cinayət törətmiş şəxslərə münasibətdə maksimalist davranmamaq, onların cəmiyyətə yenidən qazandırılması və ədalətə olan inamının itməməsi üçün zəruri, demokratik və vətəndaş cəmiyyəti prinsiplərinə söykənən hüquqi-normativ bazanın yaradılması və effektiv tətbiqidir. Əfv institutu da, bu baxımdan, hüquqi dövlətdə vacib faktor kimi çıxış edir. Prezident İlham Əliyev də əfv hüququndan istifadə edərək, mütəmadi olaraq, məhkumları tam və ya cəzalarının geridə qalan hissəsindən azad edərək, yüksək humanizm nümunəsi göstərir. Təkcə sonuncu 2019-cu ilin 16 mart tarixli "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" Sərəncam 431 nəfərə şamil edilmişdir. Bu humanist addım, birmənalı şəkildə, ictimai sülhə və vətəndaş həmrəyliyinə xidmət edərək, cəmiyyətimiz tərəfindən hər zamankı kimi öz yüksək qiymətini almışdır.

Sonda xüsusi vurğulamaq istərdik ki, Azərbaycanda demokratikləşmə və modernləşmə sahəsində keyfiyyətcə yeni mərhələnin əsasını qoymuş 2018-ci ilin 11 aprel seçkiləri ölkəmizin innovativ əsasda inkişafına ciddi zəmin hazırlamış, islahatların elmi əsaslarla aparılacağı qənaətini daha da gücləndirmişdir. Son seçkilərdən dərhal sonra dövlət başçısının siyasi iradəsiylə hökumətin tərkibinin əsaslı şəkildə yenilənməsi, çevikliyi, müasirliyi, novatorluğu ilə fərqlənən, müasir innovasiyaları mənimsəyən gənclərin dövlət idarəetməsində işə çəkilməsi islahatların səmərəliliyini təmin etmək və şəffaflığı artırmaq məqsədindən irəli gəlir.

İnkişafa xidmət edən islahatların reallaşdırılmasında Azərbaycan Prezidentinə ən böyük dəstək xalqdan və ölkəsinin taleyini Cənab İlham Əliyevə etibar etmiş vətəndaşlarımızdan gəlir. Bu gün Azərbaycan xalqı Cənab İlham Əliyevi intibahın, siyasi sabitliyin, əmin-amanlığın, sülhün qarantı hesab edir və ona tam güvənir. Çünki xalq həyatında, taleyində baş vermiş böyük dəyişikliklərin, Azərbaycanı parlaq sabahlara doğru aparan siyasi kursun alternativsizliyini yaxşı dərk edir və bu siyasəti birmənalı dəstəkləyir. Uğurlar olsun, Cənab Prezident!

# Hikmət Hacıyev: "İşğal olunmuş ərazilərimizdə qeyri-qanuni fəaliyyətlər problemi ilə bağlı tədbirlər davam etdiriləcək"

***BMT-nin Cenevrə Bölməsinin qərargahında Azərbaycan Respublikasının Cenevrədəki BMT Bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəliyi BMT-nin Sülh Universiteti ilə birgə "Münaqişə ərazilərində qeyri-qanuni iqtisadi fəaliyyətlərin insan hüquqlarına təsirləri" mövzusunda beynəlxalq konfrans təşkil edib.***

Konfransın nəticələrini AZƏRTAC-a şərh edən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib ki, Prezident İlham Əliyev ölkəmizin işğal olunmuş ərazilərində qeyri-qanuni fəaliyyətlərin qarşısının alınmasını xarici siyasətimizin qarşısında mühüm tapşırıqlar kimi qoyub. Bu xüsusda Azərbaycanda və xaricdə müxtəlif tədbirlər keçirilir. Belə ki, martın 5-də beynəlxalq ekspertlərin iştirakı ilə Azərbaycanda hərbi işğal altında olan ərazilər və üçüncü tərəflərin məsuliyyəti adı altında beynəlxalq konfrans keçirilib. Azərbaycan Respublikasının malik olduğu peyk imkanlarından istifadə etməklə, Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində həyata keçirdiyi fəaliyyətləri sübut edən faktlar müəyyən olundu və bu da bir hesabat formasında beynəlxalq ictimaiyyətə təqdim edildi.



Bu prosesin ardınca isə bu gün BMT-nin Cenevrə Bölməsində "İşğal olunmuş ərazilərdə qeyri-qanuni fəaliyyətlər və onun insan hüquqlarına təsiri" mövzusunda konfrans keçirildi. Bu tədbirə paralel olaraq, Strasburqda Avropa Şurasının mənzil-qərargahında da qeyri-qanuni fəaliyyətlər və onun Avropa Şurası qarşısında götürülmüş öhdəliklərlə ziddiyyət təşkil etməsi və ona təsirləri mövzusunda konfrans keçirilir. Bu, onu göstərir ki, dövlətimizin başçısının tapşırığına uyğun olaraq, kompleks şəkildə bütün istiqamətlərdə aidiyyəti beynəlxalq təşkilatlarda bu mövzu ardıcıl surətdə qaldırılır və beynəlxalq problemin tərkib hissəsində Azərbaycan Respublikasının üzləşdiyi problem də dünya ictimaiyyətinin diqqətinə çatdırılır.

Şöbə müdiri qeyd edib ki, bugünkü konfransda məhz qeyri-qanuni iqtisadi fəaliyyətlər və onların insan hüquqlarına təsiri mövzusuna toxunulub. Beynəlxalq hüquq və beynəlxalq humanitar hüquq, xüsusilə də Cenevrə Konvensiyaları nöqteyi-nəzərindən baxdıqda və beynəlxalq təcrübəyə müraciət etdikdə, aydın şəkildə görünür ki, işğal olunmuş ərazilərdə qeyri-qanuni fəaliyyətlərin həyata keçirilməsi dövlətlər üzərinə konkret beynəlxalq hüquqi məsuliyyət də qoyur. Buna baxmayaraq, Ermənistan Respublikası öz üzərinə götürdüyü beynəlxalq öhdəliklərə zidd şəkildə Azərbaycanın işğal olunmuş ərazilərində bir neçə istiqamət üzrə qeyri-qanuni fəaliyyətlər aparır. Bunların arasında narahatlıq doğuran məqamlardan biri də Azərbaycanın işğal olunmuş ərazilərində məskunlaşma siyasətinin aparılmasıdır. Belə ki, Suriyadan olan qaçqınların Azərbaycanın işğal olunmuş ərazilərində yerləşdirilməsi, burada demoqrafik tərkibin dəyişdirilməsi, həmçinin işğal edilmiş ərazilərdə Azərbaycanın maddi-mədəniyyət abidələrinin dağıdılması və talan edilməsi, onların Azərbaycan xalqına mənsubluğunu bildirən memarlıq xüsusiyyətlərinin dəyişdirilməsi istiqamətində fəaliyyət göstərilir, addımlar atılır.

Beynəlxalq hüquqda bu məsələ aydın şəkildə müəyyən olunsa da, dövlətlərin milli qanunları səviyyəsinə gəldikdə, burada ziddiyyətlər üzə çıxır. Açıq şəkildə qeyd etməliyik ki, bəzi dövlətlərin hüquqi və fiziki şəxsləri Azərbaycanın işğal olunmuş ərazilərində fəaliyyət göstərirlər və bu məsələ də bu gün konfrans çərçivəsində müzakirə olundu. Hikmət Hacıyev, həmçinin diqqətə çatdırıb ki, bu kimi tədbirlər davam etdiriləcək. BMT-nin aidiyyəti üzrə digər təsisatlarında, o cümlədən Nyu-Yorkdakı mənzil-qərargahında da bu istiqamətdə müvafiq tədbirlərin keçirilməsi nəzərdə tutulur.

# Hikmət Babaoğlu: "Yeni Azərbaycan" qəzeti üzərinə düşən vəzifəni bundan sonra da layiqincə yerinə yetirəcək

Aprelin 10-da "Yeni Azərbaycan" qəzetinin fəaliyyətə başlamasından 26 il ötür. Qəzetin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu deyib ki, "Yeni Azərbaycan" qəzeti müstəqil mətbuatımızın yeni formalaşdığı illərdə - 1993-cü ildə işıq üzü görüb və media həyatına ideoloji qəzet kimi başlayıb.

Onun sözlərinə görə, Yeni Azərbaycan Partiyasının (YAP) rəsmi orqanı olan bu qəzet ötən illər ərzində ölkəmizin ən çox oxunan və sevilən ictimai-siyasi qəzetlərindən birinə çevrilib: "Yeni Azərbaycan" qəzeti fəaliyyət göstərdiyi illər ərzində ölkəmizdəki ictimai rəyin düzgün əsaslarda formalaşması işinə özünəməxsus töfhələr verib. Eyni zamanda, "Yeni Azərbaycan" qəzeti milli mətbu orqanlarımız içərisində obyektivliyi və milli-mənəvi dəyərlərimizi geniş təbliğ etməsi ilə seçilib, dünyada baş verən hadisələri analitik təfəkkürün süzgəcindən keçirərək Azərbaycan ictimaiyyətinə ötürmə missiyasını uğurla aparıb. "Yeni Azərbaycan" hazırda sayı 730 mindən çox olan Yeni Azərbaycan Partiyasının üzvləri ilə bərabər, həm də bütövlükdə Azərbaycan xalqının qəzetidir. Qəzet ümumi-kütləvi auditoriyaya müraciət edən çoxtirajlı qəzetlərdən, milli media nümunələrindən biridir".

Baş redaktor bildirib ki, "Yeni Azərbaycan" qəzetinin bu cür populyarlıq qazanması və özünəməxsus ciddi imic formalaşdırması YAP rəhbərliyinin, İcra katibliyiinin tövsiyələri əsasında baş tutub: "Bu gün milli media təkcə xəbər ötürücüsü deyil, eyni zamanda, milli və informasiya təhlükəsizliyini təmin edən əsas vasitələrdən biridir. YAP sədri, Prezident İlham Əliyev deyir ki,



informasiya təhlükəsizliyi milli təhlükəsizliyimizin tərkib hissəsidir. Bu mənada "Yeni Azərbaycan" qəzeti də digər milli mətbu nümunələrimiz kimi üzərinə düşən bu missiyanı yerinə yetirməyə çalışır. Bu gün Azərbaycan mediası məhz Azərbaycan Prezidentinin hərtərəfli diqqəti və qayğısı ilə əhatə olunub. Əsası Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş milli mətbuatımıza diqqət və qayğı siyasəti bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilir. Jurnalistlərin peşə nüfuzunun artırılması üçün tədbirlər görülür, onların məişət və maddi problemlərinin həlli, redaksiyaların maddi-texniki təminatının gücləndirilməsi, media təmsilçilərinin peşəkarlığının artırılması istiqamətində ardıcıl işlər görülür. Eyni zamanda, siyasi mövqeyindən asılı olmayaraq, Azərbaycan mediasının bütün nümunələri medianın inkişafı ilə əlaqədar ixtisaslaşmış xüsusi qurum olan Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu vasitəsilə ciddi şəkildə maliyyələşdirilir. Bütün bunlar belə bir obyektiv fikri ifadə etməyə imkan verir ki, Azərbaycan Prezidenti İlham Əliyev medianın böyük hamisi və qayğıkeşidir. "Yeni Azərbaycan" qəzeti də 26 yaşında digər media nümunələri kimi bu gün də o qayğını hiss edir".

H.Babaoğlu, həmçinin "Yeni Azərbaycan" qəzetinin gələcək planlarından da danışaraq qeyd edib ki, bu gün milli mediamız öz missiyasını təkcə kağız üzərində deyil, internet resursları üzərində də həyata keçirir: "Əlbəttə ki, əgər qəzet dünyada baş verən proseslərlə ayaqlaşmaq istəyirsə, mütləq mövcud texnologiyaların imkanlarını, hazırkı operativ oxucu tələbatını nəzərə almalıdır. "Yeni Azərbaycan" qəzeti də hazırda elektron səhifəsi olan internet qəzetlərdən biridir. Həmçinin sosial şəbəkələrdə səhifələri fəaliyyət göstərir. Gələcək planlarımıza gəldikdə isə, bu hər bir milli media nümunəsi kimi millətimizin informasiya təhlükəsizliyinin keşiyində durmaqdan, partiyamızın, dövlətimizin, xalqımızın maraqlarını informasiya mübarizəsi rəqabəti platformalarında həyata keçirməkdən ibarətdir. Ən əsası isə hazırda qlobal informasiya məkanında milli informasiya məkanımızı təhdid edən bu və digər informasiya məhsullarına qarşı mübarizə aparmaq və onlara qarşı öz auditoriyasını maarfləndirməkdir. Çünki bu gün milli təhlükəsizliyin ən əsas komponentlərindən biri məhz informasiya təhlükəsizliyidir. Eyni zamanda, "Yeni Azərbaycan" qəzeti olaraq kifayət qədər rəngarəng olan milli media məkanında oxucu auditoriyasının tələblərinə cavab verən məqalə və analitik yazılarımızla ictimai-siyasi proseslərin düzgün təhlili, ölkəmizin bütün sferalarda qazandığı nailiyyətlərin obyektiv şəkildə işıqlandırılması işində üzərimizə düşən vəzifəni bundan sonra da layiqincə yerinə yetirməyə çalışacağıq".

## Professor: "Əhalinin təbii artımının qorunub saxlanması həm də hərtərəfli təhlükəsizliyin əsasıdır"

Əhalinin təbii artımının qorunması milli varlığın təməli və hərtərəfli təhlükəsizliyin əsasıdır. Aprelin 6-da Azərbaycanın 10 milyonuncu sakininin dünyaya gəlməsi ölkəmiz üçün xüsusi əhəmiyyət daşıyan hadisədir. Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyədə fəaliyyət göstərən azərbaycanlı professor, tibb elmləri doktoru Adil Allahverdiyev söyləyib. Professor bildirib ki, Azərbaycan inkişaf etmək üçün təbii və qazanılan resurslardan səmərəli istifadə etməklə öz gücünü sürətlə artırır. Konkret olaraq əhalinin təbii artımına gəldikdə, bu amil insan gücünə, intellektinə, zəkasına, bir sözlə, insan əməyinə bağlı olan bütün sahələrdə birbaşa uğur qazanmağın əsasını təşkil edir. Təbii artım sayəsində yenilənən nəsillər ölkənin təhlükəsizliyi üçün müasir platformaların ortaya çıxmasında aparıcı qüvvədir.

Möhkəm ailə təməlinin və əhalinin təbii artımının milli-mənəvi dəyərlərimizə bağlı olduğunu diqqətə çatdıran A.Allahverdiyev deyib: "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın aprelin 9-da 10 milyonuncu sakin Mehriban Həsənovanın valideynləri ilə görüşməsi Azərbaycan xalqı tərəfindən rəğbətlə qarşılanıb. Diqqət və qayğı amili olan bu görüş həm də dövlət-vətəndaş münasibətlərinin göstəricisidir".

## Ərdoğan Dövlət Baxçalı ilə görüşüb

Türkiyə Prezidenti, Ədalət və İnkişaf Partiyasının (AKP) sədri Rəcəb Tayyib Ərdoğan müxalifətdə olan Milliyyətçi Hərəkat Partiyasının (MHP) sədri Dövlət Baxçalı ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, görüş KİV-lərə qapalı şəraitdə keçirilib. Qeyd edək ki, hazırda Türkiyənin siyasi gündəmində ən aktual məsələ martın 31-də keçirilən bələdiyyə seçkilərinin nəticələri ilə bağlıdır. Nəticələrə iddialı tərəflər bir sıra bölgələrdə səsverməyə etiraz ediblər. Ali Seçki Komissiyası yaxın günlərdə seçkilərə dair nəticələri açıqlayacaq. AKP və MHP bu seçkilərdə "Cümhur ittifaqı" blokunda birgə iştirak ediblər.

# "Möhtəşəm 15+1 il: Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə misilsiz inkişaf yolunda"





Dünən YAP Səbail rayon təşkilatında 11 aprel prezident seçkilərinin keçirilməsinin bir illiyi ilə bağlı tədbir keçirilib.

Tədbirdə çıxış edən YAP Səbail rayon təşkilavtının sədri, millət vəkili Şəmsəddin Hacıyev bildirdi ki, ölkəmizin ictimai-siyasi həyatında əhəmiyyətli rol oynayan 11 aprel 2018-ci il prezident seçkilərindən bir il ötür. Xalqın böyük əksəriyyətinin dəstəyini qazanaraq növbəti 7 ilin hədəflərinin gerçəkləşməsinə yol açan Möhtərəm Prezidentimiz İlham Əliyevin qələbəsi, təbii ki, son 15 ilin uğurlarına söykənmiş real amil idi. 2003-cü ildə keçirilən andiçmə mərasimində qarşıdakı illərdə görüləcək işləri açıqlayan dövlətimizin başçısı bu vədi vermişdi: "Ancaq bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün, ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən, mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm." Bu vədə sadiqlik Azərbaycanın davamlı inkişafını təmin etməklə yanaşı, Cənab İlham Əliyevin 2008, 2013 və 2018-ci illər prezident seçkilərində qələbəsini şərtləndirdi".

Ş.Hacıyev onu da vurğuladı ki, bir il zaman baxımından az olsa da, bütün sahələrdə böyük uğurlar əldə olundu: "Güclü iqtisadiyyat güclü dövlət deməkdir. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında inkişaf yolu keçməkdədir. Belə ki, son 15 ildə sürətli inkişaf yolu keçən Azərbaycan dünyanın heç bir dövlətinə müyəssər olmayan sürətli inkişaf yolu keçib. Belə ki, 15 il öncə, 1,8 milyard dollar valyuta ehtiyatına sahib idisə, bu gün həmin rəqəm 24 dəfə artaraq, 44,3 milyard dollara yüksəlib. Sözsüz ki, bu ölkə Prezident İlham Əliyevin düşünülmüş uğurlu siyasəti nəticəsində əldə olunub: "İnkişafımızın təməlində həm düşünülmüş siyasət, həm güclü iradə, eyni zamanda, güclü iqtisadiyyat dayanır. Biz güclü iqtisadiyyat qura bilmişik, bu gün heç kimdən asılı deyilik, özümüz öz taleyimizin sahibiyik və iqtisadi sahədə böyük uğurlar əldə etmişik. Son 16 ilin göstəriciləri bunu əyani sübut edir. İqtisadi baxımdan 16 il ərzində Azərbaycan qədər inkişaf edən ikinci bir dövlət yoxdur. Hətta böhranlı illərdə də biz öz iqtisadi gücümüzü qoruya bilmişik".

Tədbirdə digər çıxış edənlər Prezident İlham Əliyevin 16 illik Prezidentlik fəaliyyəti dövründə apardığı siyasətin mühüm prinsiplərindən danışaraq, qeyd etdilər ki, ölkəmizdə uğurlu sosial siyasətin həyata keçirilməsi, ilk növbədə, belə qənaətə gəlməyə kifayət qədər zəmin yaradır ki, bu siyasətin əsas məqsədi Azərbaycanda sosialyönümlü dövlət quruculuğunu təmin etməkdir.

***RƏFİQƏ HÜSEYNOVA***

# "Sosial tərəqqi və davamlı inkişaf"

## *YAP Qaradağ rayon təşkilatı rayon icra hakimiyyəti ilə birlikdə 11 aprel prezident seçkisinin 1 illiyi qeyd olunub*

***Dünən YAP Qaradağ rayon təşkilatı rayon icra hakimiyyəti ilə birlikdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Prezident seçilməsinin 1 illiyinə və ölkədə aparılan sosial, iqtisadi, siyasi islahatlara həsr olunmuş "Sosial tərəqqi və davamlı inkişaf" mövzusunda dəyirmi masa keçirilib.***



Qaradağ rayonu Heydər Əliyev Mərkəzində keçirilən tədbiri giriş sözü ilə açan Qaradağ rayon icra hakimiyyətinin başçısı Süleyman Mikayılov bildirdi ki, ötən bir ildə də Prezident İlham Əliyevin sosial-iqtisadi sahədə həyata keçirdiyi davamlı islahatlar sistemli və ardıcıl olub.

S.Mikayılov diqqətə çatdırdı ki, Azərbaycanda 2003-cu ildən başlayaraq sosial-iqtisadi, siyasi, hüquqi və digər sahələrdə aparılan islahatların son bir ildə də ugurla davam etdirilib: "Təkcə ötən bir il ərzində əldə olunan uğurların miqyasına baxmaq kifayətdir. Ötən il regionların sosial-iqtisadi inkişafı ilə bağlı üçüncü beşillik proqram başa çatdı".

YAP Qaradağ rayon təşkilatının sədri, millət vəkili Aydın Hüseynov Azərbaycanın regionda, eləcə də, dünyada əsas söz sahibinə çevrildiyini bildirdi. Ötən il ümumi daxili məhsul 1,4 faiz, qeyri-neft sektoru 1,8, sənaye istehsalı 1,5, kənd təsərrüfatı isə 4,6 faiz artıb. Valyuta ehtiyatlarımız 45 milyard dollara çatıb, ölkədə 118 min daimi iş yeri yaradılıb.

A.Hüseynovun sözlərinə görə Prezident İlham Əliyevin son bir ildə həyata keçirdiyi islahatlar nüfuzlü reytinq təşkilatları tərəfindən də təqdir edilir. Fransanın "Opinion Way" şirkəti tərəfindən, Naxçıvan Muxtar Respublikası istisna olmaqla, Azərbaycanın bütün bölgələrində keçirdiyi geniş rəy sorğusu bunu bir daha təsdiq edir.

Millət vəkili Tahir Mirkişili çıxışı zamanı vurğuladı ki, cari ildə dövlət büdcəsində sosial sahəyə ayrılan vəsaitlərin həcmi, bütövlükdə artıb, əhalinin rifah halının yaxşılaşmasına xidmət edən tədbirlərin davam etdirilməsi nəzərdə tutulub: "Prezident İlham Əliyev sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsində insan və vətəndaş mənafeyinə xidmət edən islahatların dərinləşdirilməsini də vacib sayır. Son illər korrupsiyaya qarşı mübarizə tədbirləri çərçivəsində yaradılmış "ASAN xidmət" mərkəzləri, qısa müddətdə ictimaiyyətin böyük inam və etimadını qazanaraq, Azərbaycanın milli brendinə çevrilmişdir".



Təlbirdə gənc fəallar Seyidməmməd Məmmədzadə, Könül Əhmədova Prezident İlham Əliyevin gənclər siyasətindən bəhs etdilər. Azərbaycanda idarəetmə strukturlarında gənclərə yüksək etimadın göstərilməsini bu siyasətin parlaq nümunəsi olduğunu vurğuladılar.

***R.HÜSEYNOVA***

# Uğurları şərtləndirən amil: İlham Əliyev - Xalq birliyi

## Bu mövzuda "Səs" qəzetinin redaksiyasında dəyirmi masa keçirilib



***Dünən "Səs" qəzetinin redaksiyasında "Uğurları şərtləndirən amil: İlham Əliyev - Xalq birliyi" mövzusunda dəyirmi masa keçirildi. Dəyirmi masa 2018-ci ildə ölkəmizdə keçirilən prezident seçkilərindən ötən bir il ərzində Cənab İlham Əliyevin rəhbərliyi ilə iqtisadi, siyasi, hərbi və digər sahələrdə əldə olunan uğurlara həsr olunmuşdu. Dəyirmi masada "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müşaviri Mustafa Abbasbəyli, Gənclər və İdman Nazirliyinin gənclərlə iş şöbəsinin vətənpərvərlik və vətəndaşlıq tərbiyəsi sektorunun müdiri Əli Məmmədov, iqtisadçı-ekspert Vüqar Bayramov iştirak edirdilər.***

Dəyirmi masanı giriş sözü ilə "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev açaraq, ölkəmizdə 11 aprel 2018-ci il tarixdə keçirilən prezident seçkilərindən artıq bir il ötdüyünü bildirərək, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin seçkilərdə növbəti dəfə xalqın böyük əksəriyyətinin səsini qazanaraq parlaq qələbəyə nail olmasını ölkə əhalisinin rifah halının yaxşılaşdırılmasına xidmət edən uğurlu addımların atılması ilə xarakterik yeni uğurlu islahatlar mərhələsinə keçidə təminat vermiş olduğunu diqqətə çatdırdı: "2018-ci ilin prezident seçkilərindən ötən bir ildə uğurlu sosial islahatlar və vətəndaş rifahına xidmət edən addımlar atılıb. Təkcə bu ilin ötən dövründə Prezident İlham Əliyevin uğurlu sosial islahatlar paketi vətəndaşların rifahına ciddi dəstək olan inqilabi addımların atılmasına imkan verib. Bildiyiniz kimi, Fransanın nüfuzlu "Opinion Way" sorğu mərkəzi fevral və mart aylarında Azərbaycanda mövcud ictimai-siyasi vəziyyət, Prezident İlham Əliyevin son bir ildə həyata keçirdiyi islahatlar, hökumətin ümumi, daxili və xarici siyasətinə ölkə əhalisinin münasibətini öyrənmək məqsədilə geniş rəy sorğusu keçirib. "Opinion Way" kimi müstəqil bir şirkət tərəfindən həyata keçirilən sorğuda respondentlərə təqdim olunan bütün suallara verilən cavablarda dövlət başçısına göstərilən yüksək etimad, bir daha sübut edir ki, Azərbaycan vətəndaşı ölkə rəhbərinin həyata keçirdiyi siyasəti dəstəkləyir. Bildiyiniz kimi, bu gün Azərbaycan həm sosial, həm siyasi, həm də iqtisadi sahədə dünyaya inkişafın yeni modelini nümayiş etdirir. Son 1 ildə Azərbaycan Prezidenti bütün bunlarla yanaşı, liderin vətəndaşlara olan münasibətinin də yeni modelini ortaya qoymuş oldu. Belə ki, dövlət başçısının müxtəlif görüşlərdə, tədbirlər çərçivəsində, baş verən hadisələr zamanı vətəndaşların yanında olması, onların problemlərinin həllinə operativ şəkildə reaksiya verməsi, problemləri onların öz dillərindən öyrənməsi artıq bütün dünya üçün yeni model və təcrübədir. İstərdim ki, bugünkü dəyirmi masada dövlət başçısının son bir ildə həyata keçirdiyi genişmiqyaslı işlərə, eləcə də, şirkətin apardığı sorğunun nəticələrinə diqqət yetirilsin."

**BƏHRUZ QULİYEV:**

**- Hikmət müəllim, ötən bu bir il ərzində Azərbaycan Prezidenti İlham Əliyevin fəaliyyətini necə dəyərləndirərdiniz?**

### İCTİMAİ-SİYASİ SABİTLİK OLMADAN NƏ SOSİAL, NƏ DƏ İQTİSADİ PROBLEMLƏRİ HƏLL ETMƏK MÜMKÜN DEYİL

**HİKMƏT BABAOĞLU:**

- Prezident İlham Əliyevin fəaliyyətini Fransanın nüfuzlu "Opinion Way" şirkətinin sorğusunda görürük. "Opinion Way" 8 blok üzrə suallar müəyyənləşdirib. Birinci dörd blokda qiymətləndirmədə müsbət rəy 90 faizə yaxındır. Digər 4 blokda isə 80 faiz ətrafındadır. Bu, o deməkdir ki, əgər bir il bundan əvvəl, Cənab İlham Əliyev - 2018-ci ildə ölkəmizdə keçirilən prezident seçkilərində seçicilərin mütləq səs çoxluğu ilə 86,02% möhtəşəm qələbə qazanmışdırsa, bu il bu seçkilər keçirilsəydi, bu, bir neçə faiz daha yuxarı olacaqdı. Azərbaycan vətəndaşları dövlət başçısının bir illik fəaliyyətini yüksək qiymətləndirirlər. Əslində, "Opinion Way" şirkətinin sorğusuna ehtiyac qalmadan belə, sosial müşahidə qabiliyyəti olan və cəmiyyətdə ictimai rəyin nəbzini tutmağı bacaran insanlar gördülər ki, həqiqətən də, nəticələr belədir. "Opinion Way"ın elan etdiyi nəticələr əvvəlcədən görünən idi. Görək, respondentlərin qiymətləndirdikləri ən başlıca cəhətlər nədən ibarətdir? Sorğuya 2500-dən artıq respondent cəlb olunub. Rəyi soruşulanların təxminən 90 faizdən çoxu, ilk növbədə, Azərbaycanda mövcud olan ictimai-siyasi sabitliyi Prezident İlham Əliyevin fəaliyyəti ilə əlaqələndirir və bunu yüksək qiymətləndirirlər. Mən düşünürəm ki, bu bir il bundan əvvəlki seçicinin və bugünkü respondentin Azərbaycandakı ictimai-siyasi prosesə şüurlu yanaşmasının göstəricisidir. Yəni respondent bilir ki, ictimai-siyasi sabitlik olmadan nə sosial, nə də iqtisadi problemləri həll etmək mümkün deyil. Dünənki Azərbaycan seçicisi, bugünkü respondent nəyi və nə üçün qiymətləndirdiyini gözəl dərk edir.

İkinci mühüm məsələ 90 faiz ətrafında regionların sosial inkişafının təmin olunmasının yüksək qiymətləndirilməsidir. Bu məsələlərə nəzər salsaq, bunu zəruri edən mətləblərin, məsələlərin haradan gəldiyini görəcəyik. Bir il əvvəl prezident seçkiləri keçirildi və Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev öz seçki platformasını elan etdi. Burada vətəndaşa müqayisəli təhlil və seçim verildi. İki hissədən ibarət olan platforma "nələri etmişik və nələri edəcəyik" blokunda qruplaşdırılmışdır. "Nə etmişik" kateqoriyasında 2003-cü ildən başlayaraq, 2018-ci ilə qədər həyata keçirilən dövlət proqramları, islahatlar, iqtisadiyyatımızın artması və digər məsələlər var.

Doğrudan da, regionlarımızın inkişafı daima Azərbaycan Prezidentinin diqqət mərkəzində olub və bunun üçün 2004-cü ildən başlayaraq, ardıcıl dövlət proqramları həyata keçirilib. Nəticə isə göz qabağındadır. Abad yollar, qaz və elektrik enerjisi ilə təchizat, sosial obyektlərin və idman qurğularının tikilməsi, regional sağlamlıq mərkəzlərinin yaradılması, iş yerlərinin açılması və s. Buna paralel olaraq, regionların iqtisadi zonalara bölünərək hər iqtisadi zonanın xarakterinə uyğun modern iqtisadiyyatın qurulması kimi işlər yeni reallıqlar formalaşdırıb.

"Nə edəcəyik" blokunda isə görülən işlərin davam etdirilməsi idi. Diqqət etsək, görərik ki, verilən vədlərdə reklam və populist xarakterli heç bir vəd yox idi. Vəd verilməmişdi ki, yaranmış olan problemli kreditlərlə bağlı problemlər həllini tapacaq. Vəd verilməmişdi ki, 1990-cı ilin əvvəlindən qalan şəhid ailələrinə birdəfəlik müvinətlərin verilməsi ilə bağlı məsələ həllini tapacaq.

Heç şübhəsiz ki, sosial sahədə inqilabi islahatların aparılması da respondentlərin diqqətindən kənarda qalmayıb və növbəti yüksək rəy alan blokda öz əksini tapıb. Təqaüdlərin artırılması, Qarabağ veteranlarına əlavə ödənişin müəyyən edilməsi, minimum əmək haqlarının orta aylıq əməkhaqlarına yaxınlaşdırılması, problemli kreditlərin həll olunması və digər bu kimi məsələlər vətəndaşlarımızın müsbət rəy ifadə etməsini təmin edibdir. Eyni zamanda, idarəetmədə aparılan islahatlar, xarici siyasət, ordu quruculuğu işlərindəki böyük uğurlar da respondentlər tərəfindən yüksək qiymətləndirilib. Bu, Azərbaycan Prezidenti İlham Əliyevin Lider kimi xarekterinin göstəricisidir.

**BƏHRUZ QULİYEV:**

- "Opinion Way" keçirdiyi sorğuda respondentlərə təqdim olunan bütün suallara verilən cavablarda dövlət başçısına göstərilən yüksək etimad, bir daha sübut edir ki, Azərbaycan vətəndaşı ölkə rəhbərini, Onun həyata keçirdiyi siyasəti dəstəkləyir. Vüqar müəllim, son bir ildə ölkəmizdə həyata keçirilən iqtisadi islahatlarla bağlı fikirlərinizi bilmək maraqlı olardı.

### AZƏRBAYCAN İNKLÜZİV İNKİŞAFA GÖRƏ, DÜNYANIN İNKİŞAF ETMƏKDƏ OLAN ÖLKƏLƏRİ ARASINDA İLK ÜÇLÜYƏ DAXİLDİR

**VÜQAR BAYRAMOV:**

- Son bir il ərzində görülən işlərə nəzər salarkən, təbii ki, iqtisadi sahədə həyata keçirilən islahatlara da nəzər salmaq lazımdır. Azərbaycanda həyata keçirilən iqtisadi islahatları qiymətləndirərkən, diqqət çəkən əsas məqamlardan biri Azərbaycanın 2015-ci ilədək ölkə infrastrukturunu formalaşdırmasını həyata keçirməsidir. Bu ildən başlayaraq, həyata keçirilən islahatlar isə özünü daha çox formalaşdırılan infrastrukturun dəyərə çevrilməsi və müəyyən islahatların yeni keyfiyyət mərhələsinə qədəm qoyması ilə ehtiva etdi. 2018-ci ilin aprel ayından sonra, yəni son 1 ildə həyata keçirilən islahatların dairəsi kifayət qədər böyüyüb. Bu müddət ərzində həyata keçirilən islahatların beynəlxalq qiyməti də, digər illərlə müqayisədə daha fərqli idi. Görülən işlər nəticəsində, Azərbaycan Dünya Bankının hazırladığı "Doing Business 2019" hesabatında dünyanın 25 ən yaxşı investisiya mühitinə malik olan, eyni zamanda, 10 ən çox islahat aparan ölkələr sırasına daxil olub. İnvestisiya mühitinə görə, dünyada 25-ci olmaq, praktiki olaraq, son 1 ildə aparılan iqtisadi islahatlara beynəlxalq qiymət kimi də xarakterizə oluna bilər.

Yalnız Dünya Bankı deyil, eləcə də digər qurumların, Davos İqtisadi Forumu tərəfindən hazırlanan Qlobal Rəqabətlilik hesabatında da Azərbaycanın mövqeyinin daha da yaxşılaşması müşahidə olunur. Hesabata görə, Azərbaycan inklüziv inkişafa görə, dünyanın inkişaf etməkdə olan ölkələri arasında ilk üçlüyə daxildir ki, bu da MDB məkanı və eləcə də, regionda ən yaxşı göstərici kimi xarakterizə olunur.

Son bir ildə həyata keçirilən iqtisadi islahatlara diqqət yetirsək, 2018-ci ilin sonu və 2019-cu ilin əvvəllərində islahatların genişləndirilməsini müşahidə etdik, bunların hər biri idarəetmə sistemində çevikliyin artırılmasına xidmət edən islahatlardır. 2018-ci ildə Prezident İlham Əliyevin Sədrliyi ilə keçirilən müşavirələr zamanı ölkə başçısı tərəfindən iqtisadi islahatlarla bağlı müəyyənləşdirilən istiqamətlərdən biri gizli iqtisadiyyata qarşı mübarizənin gücləndirilməsidir. Bununla bağlı Azərbaycan Prezidenti İlham Əliyevin həm vergi, həm gömrük sistemi ilə bağlı fəaliyyətin şəffaflaşdırılması istiqamətində konkret tapşırıqları oldu. Nəticədə, 2018-ci ildə gömrük sistemindən dövlət büdcəsinə daxil olmalarda kəskin artım müşahidə olundu, 2019-cu il Azərbaycanda yeni vergi islahatları ilə başlandı. Bir tərəfdən, mikro və kiçik sahibkarlara yeni güzəştlərin tətbiq edilməsi, gəlir vergisinin 7 il müddətinə sıfırlanması, qeyri-neft sektorunda çalışanların gəlir vergisindən azad olunması, həm də qeyri-rəsmi məşğulluğun aradan qaldırılması istiqamətində həyata keçirilən islahatların tərkib hissəsi idi. Bundan başqa, son 1 ildə iqtisadiyyatın daha da şəffaflaşması, liberallaşması, elektron xidmətlərdən daha çox istifadə edilməsini müşahidə edirik ki, burada məqsəd vətəndaş-məmur münasibətlərinin minimuma endirilməsidir.

Əldə olunan nailiyyətlər iqtisadi sabitliklə bağlıdır. Ölkədə son bir ildə iqtisadi sabitlik qorunub-saxlanılıb.

### XALQIMIZ GÖRÜLƏN İŞLƏRİ, ƏLDƏ OLUNAN NAİLİYYƏTLƏRİ HƏR ZAMAN DƏYƏRLƏNDİRİR VƏ ƏN YÜKSƏK SƏVİYYƏDƏ QİYMƏTLƏNDİRİR

**MUSTAFA ABBASBƏYLİ:**

- Son bir ərzində çox ciddi islahatlar aparılır. Bütün sahələrdə olduğu kimi, uğurlu sosial islahatlar da həyata keçirilir. Bu dövrdə dövlət başçısının imzaladığı fərman və sərəncamların mühüm bir hissəsi, məhz əhalinin sosial müdafiəsinin əhəmiyyətli şəkildə gücləndirilməsi, sosial sahə üzrə müasir, şəffaf, çevik, optimal idarəçilik və xidmət mexanizmlərinin formalaşması məramına istiqamətlənib. Bu mühüm məqam isə Prezident İlham Əliyevin siyasi fəaliyyətində, məhz insan, vətəndaş amilinin, ölkədə sosial rifah və sabitliyin təminatının əsas yer tutduğunu bir daha təsdiq edir.

Seçkilərdə qələbə qazandıqdan sonra Prezident İlham Əliyevin imzaladığı ilk Fərmanın - 2018-ci il 19 aprel tarixli Fərmanın şəhid vərəsələrinə birdəfəlik ödəmənin (11 min manat) verilməsi ilə bağlı olması həssas qrupların sosial müdafiəsinin gücləndirilməsinin Onun növbəti prezidentlik dövründə də siyasətinin başlıca istiqamətlərindən olduğunu təsdiq etdi. 2019-cu il 28 yanvar tarixli Fərman isə birdəfəlik ödəmə verilməsi nəzərdə tutulan şəhid vərəsələrinin əhatə dairəsinin genişlənməsinə səbəb oldu.

Beləliklə, hər iki Fərmanın icrası olaraq, 12268 şəhidin vərəsələrinə ödəmə verilməsi üçün dövlət büdcəsindən 135 milyon manat vəsait ayrılıb. Ötən il noyabrın əvvəllərindən bu günədək onlardan, artıq 6200-ə yaxın şəhidin 9054 vərəsəsinə birdəfəlik ödəmənin verilməsinə dair qərar qəbul olunub.

"2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacaqdır", - deyə bəyan edən Prezident İlham Əliyevin bu sözləri Onun uğurlu sosial islahatlar paketinin nailiyyətləri kimi, əhalinin rifah halının yaxşılaşdırılması sahəsində cari ilin ötən dövründə ciddi addımların atılması ilə real təsdiqini tapıb.

Dövlət başçısının imzaladığı 25 fevral 2019-cu il tarixli Sərəncam isə ölkənin sosial həyatında inqilabi addımların davamlı xarakter aldığını göstərdi. Sərəncamla 600 minədək şəxsə, o cümlədən, 300 min əlilliyi olan şəxsə yönələn sosial müavinətlərin, Prezidentin aylıq təqaüdlərinin aprelin 1-dən orta hesabla 100 faiz artırılması təmin edildi, əlavə olaraq, bir sıra kateqoriyalardan olanlar üçün Prezidentin aylıq təqaüdləri təsis olundu.

Sərəncamın icrası üçün, əlavə olaraq, illik 400 milyon manat ayrılması nəzərdə tutulur ki, bu da sosial müavinət və təqaüdlərin verilməsinə yönələn illik vəsaitin 2 dəfə artırılması deməkdir.

Eyni zamanda, 2019-cu il 26 fevral tarixli Sərəncamla məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün aylıq müavinət 50 faiz artırılaraq, 60 manata çatdırılmaqla, bu müavinəti alan 500 mindən çox məcburi köçkünün rifahına mühüm dəstək verildi. 14 fevral 2019-cu il tarixli Sərəncamla 110 minədək tələbənin təqaüdlərinin ciddi şəkildə artırılması da təmin olundu.

Ölkədə vətəndaşların sosial problemlərinin həllini öz siyasətində prioritet kimi müəyyən edən Prezident İlham Əliyevin 28 fevral 2019-cu il tarixli Fərmanı devalvasiyanın təsirlərini aradan qaldırmağa və problemli kreditlərin həllinə də şərait yaratdı. Ölkənin sosial həyatı üçün olduqca mühüm olan 800 mindən artıq insanın problemli kredit narahatlığını aradan qaldıran bu addım Azərbaycan Prezidentinin yüksək humanizmini, onun daim ölkə vətəndaşının yanında olduğunu bir daha nümayiş etdirdi. Əlbəttə, xalqımız görülən işləri, əldə olunan nailiyyətləri hər zaman dəyərləndirir və ən yüksək səviyyədə qiymətləndirir.

*(Ardı var)*

***Nəzakət ƏLƏDDİNQIZI***

# Son 1 ildə iqtisadi sahədə qazandıqlarımız



"Azərbaycanda həyata keçirilən iqtisadi islahatları qiymətləndirərkən diqqət çəkən əsas məqamlardan biri Azərbaycanın 2015-ci ilədək ölkə infrastrukturunu həyata keçirməsidir. Bu ildən sonra həyata keçirilən islahatlar isə özünü daha çox formalaşdırılan infrastrukturun dəyərə çevrilməsi və islahatların yeni keyfiyyət mərhələsinə qədəm qoyması ilə ehtiva etdi". Bu fikirləri SİA-ya iqtisadçı ekspert Vüqar Bayramov deyib.

O bildirib ki, 2018-ci ilin aprel ayından sonra, yəni son 1 ildə həyata keçirilən islahatların dairəsi kifayət qədər böyüyüb: "Bu müddət ərzində həyata keçirilən islahatların beynəlxalq qiyməti də, digər illərlə müqayisədə daha fərqlidir. Görülən işlər nəticəsində Azərbaycan Dünya Bankının hazırladığı "Doing Business 2019" hesabatında dünyanın 25 ən yaxşı investisiya mühitinə malik olan, eyni zamanda 10 ən çox islahat aparan ölkələr sırasına daxil olub. İnvestisiya mühitinə görə, dünyada 25-ci olmaq praktiki olaraq son 1 ildə aparılan beynəlxalq qiymət kimi də xarakterizə oluna bilər".

Ekspert söyləyib ki, yalnız Dünya Bankı deyil, eləcə də digər qurumların, Davos İqtisadi Forumu tərəfindən hazırlanan Qlobal Rəqabətlilik hesabatında da Azərbaycanın mövqeyinin daha da yaxşılaşması müşahidə olunur: "Hesabata görə, Azərbaycan inklüziv inkişafa görə, dünyanın inkişaf etməkdə olan ölkələri arasında ilk üçlüyə daxildir ki, bu da MDB məkanı və eləcə də regionda ən yaxşı göstərici kimi xarakterizə olunur".

Son il ildə ölkəmizdə həyata keçirilən iqtisadi islahatlara diqqəti çəkən V. Bayramov qeyd edib ki, 2018-ci ilin sonu və 2019-cu ilin əvvəllərində islahatların genişləndirilməsini müşahidə etdik, bunların hər biri idarəetmə sistemində çevikliyin artırılmasına xidmət edən islahatlardır: "Həyata keçirilən müşavirələr zamanı Ölkə başçısı tərəfindən iqtisadi islahatlarla bağlı müəyyənləşdirilən istiqamətlərdən biri gizli iqtisadiyyata qarşı mübarizənin gücləndirilməsidir. Bununla bağlı Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən həm vergi, həm gömrük sistemi ilə bağlı fəaliyyətin şəffaflaşdırılması istiqamətində konkret tapşırıqları oldu. Nəticədə 2018-ci ildə gömrük sistemindən dövlət büdcəsinə daxil olmalarda kəskin artım müşahidə olundu, 2019-cu il Azərbaycanda yeni vergi islahatları ilə başladı. Bir tərəfdən mikro və kiçik sahibkarlara yeni güzəştlərin tətbiq edilməsi, gəlir vergisinin 7 il müddətinə sıfırlanması, qeyri-neft sektorunda çalışanların gəlir vergisindən azad olunması, həm də qeyri-rəsmi məşğulluğun aradan qaldırılması istiqamətində həyata keçirilən islahatların tərkib hissəsi idi. Bundan başqa son 1 ildə iqtisadiyyatın daha da şəffaflaşması, liberallaşması, elektron xidmətlərdən daha çox istifadə edilməsini müşahidə edirik ki, burada məqsəd vətəndaş məmur münasibətlərinin minimuma endirilməsidir"

## Hüsnan Bəy Fanani: "Naxçıvan ilə İndoneziya arasında əlaqələrin genişləndirilməsi üçün səylərimi əsirgəməyəcəyəm"

Naxçıvan İslam dünyası üçün çox əhəmiyyətli bir məkandır. Təsadüfi deyil ki, Naxçıvan 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilib. Bu sözləri AZƏRTAC-ın Naxçıvan bürosuna müsahibəsində İndoneziyanın ölkəmizdəki səfiri Hüsnan Bəy Fanani deyib.

O vurğulayıb ki, Naxçıvan Muxtar Respublikası iqtisadiyyat və turizm sahəsində böyük potensiala malik bir diyardır. "Muxtar respublikaya səfərimin məqsədi Naxçıvanla İndoneziya arasında əlaqələrin formalaşdırılması və daha da genişləndirilməsindən, gələcəkdə hansı sahələrdə əməkdaşlıq imkanlarının mövcud olduğunu öyrənmək və inkişaf etdirməkdən ibarətdir", - deyən səfir onu da qeyd edib ki, Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İndoneziya arasında əlaqələrin genişləndirilməsi istiqamətində səylərini əsirgəməyəcək. Hüsnan Bəy Fanani deyib: "Naxçıvanda turizmin inkişafı üçün bütün şərait yaradılıb. Həm də Naxçıvan tarixi, mədəni və dini abidələrlə zəngindir, bunlardan Nuh Peyğəmbərin türbəsi və "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksini qeyd etmək lazımdır". Naxçıvanda təhsil, səhiyyə və mədəniyyət sahələrində də böyük uğurların əldə edildiyini vurğulayan diplomat bildirib ki, muxtar respublikada müasir standartlara cavab verən ali təhsil ocaqları, səhiyyə və mədəniyyət müəssisələri mövcuddur. Qədim diyarda yüksək intellektual səviyyəyə malik gənclər yetişir.

## Rusiya Prezidenti soydaşımızı mükafatlandırıb

Soydaşımız Ruslan Bayramov "Vətən qarşısında xidmətlərə görə" ordenin II dərəcəli medalı ilə təltif edilib. AZƏRTAC xəbər verir ki, Rusiya Prezidenti Vladimir Putinin Fərmanı ilə Kaluqa vilayətində həyata keçirilən "ETNOMİR" layihəsinin rəhbəri, "Mədəniyyətlərin dialoqu-vahid dünya" Beynəlxalq Xeyriyyə Cəmiyyətinin prezidenti, azərbaycanlı Ruslan Bayramov "Vətən qarşısında xidmətlərə görə" ordenin II dərəcəli medalı ilə təltif edilib. Fərmanın mətni hüquqi informasiya rəsmi internet-portalında yerləşdirilib.

Ruslan Bayramov bu mükafata Rusiyanın mədəni və tarixi irsinin qorunması və təbliği sahəsində fəaliyyətinə görə layiq görülüb. Həmyerlimiz Azərbaycanın Gədəbəy rayonunun Novoivanovka kəndində anadan olub. Onun həyata keçirdiyi əsas layihələrdən biri unikallığı ilə seçilən və dünya xalqlarının həyat tərzi, ənənələri və mədəniyyəti ilə tanış olmaq imkanı verən "ETNOMİR" mədəniyyət-təhsil turizm mərkəzidir.




# YAP Xaçmaz rayon təşkilatı gənclər birliyinin VIII konfransı keçirilib





***Dünən YAP Xaçmaz rayon təşkilatı gənclər birliyinin VIII konfransı keçirilib. Konfrans iştirakçıları ilk öncə, Ulu Öndərin abidəsini ziyarət edərək, önünə gül-çiçək qoyublar.***

Heydər Əliyev Mərkəzində keçirilən konfransı giriş sözü ilə YAP Xaçmaz rayon təşkilatının sədri Nazim Ağayev açaraq, konfransda iştirak edən qonaqları salamlayıb.

Əvvəl konfransın gündəliyi təsdiq olunub. YAP Xaçmaz rayon təşkilatının gənclər birliyinin sədri Emin Tağıyev ötən müddət ərzində, təşkilatın gördüyü işlər barədə geniş məlumat verərək gənclərin fəallığından, rayonun ictimai-siyasi həyatında yaxından iştirak etmələrindən, dövlətə, dövlətçiliyimizə, Prezidentimizə həmişə sədaqətli olmalarından və bütün hallarda Prezidentin yanında olmaları barədə geniş məlumat verib.

Konfransda Xaçmaz rayon icra hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayev, Milli Məclisin deputatı İlham Əliyev, YAP Gənclər Birliyinin sədri Seymur Orucov, YAP Xaçmaz rayon təşkilatı idarə heyətinin üzvü, təhsil şöbəsinin müdiri Mədinə Nurməmmədova, fəal gənc Kazım Balakişiyev, Ümummilli Lider Heydər Əliyevin doğum gününə həsr olunmuş “Ən yaxşı təqdimat” layihəsinin qalibi Azərin Məmmədova çıxış edərək ölkə rəhbərliyinin gənclərə göstərilən diqqət və qayğısından, ölkəmiz inkişaf etdikcə, həyata keçirilən uğurlu sosial siyasətdən, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasi, iqtisadi, hüquqi və sosial islahatlar nəticəsində, ölkəmizin əldə etdiyi böyük uğurlardan, 10 milyonuncu ölkə vətəndaşına göstərilən diqqət və qayğıdan və digər məsələlər barədə geniş məlumat veriblər.

Konfrans YAP Xaçmaz rayon gənclər birliyi şurasının yeni tərkibini seçərək, Fərid Bəybala oğlu Musayev gizli səsvermə yolu ilə YAP Xaçmaz rayon təşkilatının sədri seçilib. Fərid Musayev çıxış edərək, ona göstərilən etimada görə partiya rəhbərliyinə öz təşəkkürünü və minnətdarlığını bildirib.

Konfransda YAP Gənclər Birliyinin respublika konfransına nümayəndə seçilib. Sonda partiya sıralarına daxil olmuş bir qrup gəncə üzvlük vəsiqələri təqdim olunub.

**R.KAMALQIZI**

# Qədəmlərin mübarək, Mehriban!

## *On milyonluq Azərbaycan*




***Ölkəmizdə əhalinin sayının 10 milyon nəfərə çatması Masallıda sevinclə qeyd edilir. Xatırladaq ki, aprelin 6-da keçmiş Ağdərə rayonunun sakinləri, hazırda Ağdam rayonunun Baş Güneypəyə kəndində qeydiyyatda olan məcburi köçkün Ocaqova Nigar Çərkəz qızı ilə Həsənov Rauf Yunis oğlunun ailəsində Azərbaycanın 10 milyonuncu sakininin dünyaya gəlməsi münasibətilə Masallı rayon icra hakimiyyətinin xətti ilə silsilə tədbirlər keçirilib.***



Azərbaycanda əhalinin sayının 10 milyon nəfərə çatması respublikanın, hər yerində olduğu kimi, Masallıda da sevinclə qeyd olunur. Bu əlamətdar hadisə münasibətilə Masallıda iki min ədəd ağac əkilib.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən ağacəkmə aksiyası zamanı 2 hektar sahədə sərv, şam, göyrüş və başqa növ ağaclar əkilib. Aksiyada Masallı rayon icra hakimiyyətinin başçısı Rafil Hüseynov və aparatı, təhsil, səhiyyə işçiləri ilə yanaşı, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin işçiləri, məktəblilər, tələbələr iştirak ediblər. Sonra şəhərin Bayraq Meydanında bayram tədbir keçirilib. Bayram tədbirində bildirilib ki, son illərdə Azərbaycan əhalisinin sayı sürətlə artır. Bu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müdrik və uzaqgörən rəhbərliyi ilə Azərbaycanda iqtisadi inkişaf, sabitlik və əhalinin sosial rifahının yaxşılaşması istiqamətində görülən böyük işlərin nəticəsidir. Aparılan sosial-iqtisadi siyasətin əsas uğurlarından biri kimi, dayanıqlı inkişafa rəğmən, Azərbaycanda müsbət demoqrafik şərait bərqərar olub.

Tədbir Masallının tanınmış incəsənət ustalarının ifasında konsert proqramı və məktəblilər tərəfindən hazırlanmış fləşmobla davam edib.

“Asan həyat”da keçirilən bayram konserti proqramı da yaddaqalan olub. Şəhər və kənd sakinləri, rayonumuzun qonaqları Masallı Regional Mədəniyyət və Turizm İdarəsinin incəsənət ustalarının ifasında şən mahnılar dinləyib və bir-birindən maraqlı rəqslərə tamaşa etmişlər. On milyonuncu sakinin doğulması münasibətilə gün ərzində Masallı şəhərində, Viləş çayının Musakücə kənd körpüsünün sağ və sol səmtlərində ağacəkmə aksiyası təşkil olunub. Gələcəkdə bu yaşıllıqlar şəhərimizin ən gözəl və gəzməli yerlərindən olacaq. Azərbaycanın 10 milyonuncu sakininin dünyaya gəlməsi münasibətilə keçirilən tədbirlər şəhərin Heydər Əliyev Mərkəzində də davam etdirilib.

Əvvəlcə videoçarx göstərilib.

Bayram tədbirində Masallı rayon icra hakimiyyətinin başçısı Rafil Hüseynov çıxış edərək bildirib ki, Azərbaycanın ən gözəl səhifələrindən biri açılır. Azərbaycanda dünyaya gələn 10 milyonuncu vətəndaş bu gündən ölkənin 11 milyonuncu vətəndaş kimi tanınır. Azərbaycan 10 milyonluq ölkəyə çevrildi. Bu münasibətlə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva körpənin valideynlərini və Azərbaycan xalqını təbrik elədi: “Bu təbrik hamımızındır. Hamınızı təbrik edirəm. Qədəmləri uğurlu olsun. Azərbaycana qədəm qoyan və adı Mehriban olan Mehriban xanımımız bu dünyaya, onun Azərbaycanına xoş gəlibdir.”

Bakının və Masallının incəsənət ustaları Miriş Hüseynov, Atomoğlan Zahidov, Səidə Şərifəliyeva, Şamo İbayev və Ruslan Zahidovun oxuduqları şən mahnılar, Masallı rəqs qrupu, “Halay” folklor kollektivinin ifa etdikləri rəqslər hamıda xoş ovqat yaradıb.

Konsert bir neçə dəqiqəlik böyük atəşfəşanlıqla başa çatıb.

***Əlihüseyn Şükürov,***
***Masallıda çıxan həftəlik “Yeni həyat” qəzetinin baş redaktoru***

# Son 15+1il - Düşünülmüş siyasət, uğurlu nəticələr, real perspektivlər

## *İlham Əliyev: "Azərbaycan bundan sonra da uğurla, inamla inkişaf edəcək, tərəqqi və qələbələr yolu ilə gedəcək"*



***Azərbaycanın çağdaş tarixində yeni intibah mərhələsinin əsasını qoyan, milli mənafelərə söykənən strateji siyasi kursun ardıcıllığını təmin edən, respublikamızı dinamik inkişaf magistralına çıxarmaqla şanlı və əlamətdar hadisəyə çevrilən ölkə Prezidenti İlham Əliyevin Prezidentlik fəaliyyətinin - 15+1 ili. 11 aprel 2018-ci ildə keçirilən prezident seçkilərində xalqın mütləq əksəriyyətinin böyük etimadını qazanaraq dövlət başçısı seçilmiş Cənab İlham Əliyev respublikamızın yeni dövr üçün iqtisadi siyasət prioritetlərini açıqlamış, çevik və işlək mexanizmlər üzərində, proqressiv islahatları təmin etməklə, böyük ictimai rəğbət qazanmış, hər bir azərbaycanlının layiqli Prezidenti olduğunu sübuta yetirmişdir.***



***Mehriban ABASQULİYEVA, YAP Sabunçu rayon təşkilatının sədri***

Xalqının Prezidenti olduğunu əməli və yorulmaz fəaliyyəti ilə sübuta yetirmiş dövlət başçımızın keçdiyi həyat yoluna nəzər saldıqca, biz bir çox qürurverici hadisələrin, əzəmətli tarixi reallıqların şahidlərinə çevrilmiş oluruq. Belə ki, ötən müddət ərzində, Onun böyük uğurlarla zəngin olan siyasi addımları da təsdiq edir ki, Prezident İlham Əliyev siyasəti bir fenomenə çevrilmiş gerçəklikdir.

### Çevik, qətiyyətli və düzgün qərarlar qəbul edən xalqın Prezidenti

"Əsl siyasət konkret, real iş görməkdən ibarətdir"- deyən dövlət başçısının ötən illərdə qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar, Cənab Prezidentin daim xalqın mənafeyindən çıxış etdiyini, habelə, verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini, gerçəkliyə adekvat olduğunu göstərmişdir.

Bu illər ərzində, Azərbaycanda həyat günbəgün dəyişir. İnsanların həyat səviyyəsinin yaxşılaşdırılması ilə yanaşı, Azərbaycanın siması yeniləşir. Dəyişən təkcə Azərbaycanın gözlə görünən reallıqları deyil, eyni zamanda, insanların düşüncələri də dəyişib. Çünki bugünkü Azərbaycan vətəndaşı həyata başqa nəzərlərlə baxır, özünə və ölkəsinin bundan da daha böyük uğurlar əldə edəcəyinə inanır. Bu inam hər il görülən daha böyük uğurların nəticələrini gördükcə sabaha daha böyük bağlılıqla inanır.

Bu yerd Prezident İlham Əliyevin 2003-cü ildə keçirilən andiçmə mərasimində söylədiyi bu fikirləri bir daha yada salmaq istərdim: "Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün, ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən, mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm."

Prezident İlham Əliyevin müdrik və uzaqgörən inkişaf strategiyası nəticəsində, son 16 ildə dayanıqlı və davamlı iqtisadi inkişafa nail olan, dünyadakı nüfuzu durmadan artan, regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilən ölkəmiz bu gün müəyyən edilmiş hədəflərə doğru inamla irəliləyir, ötən hər il bütün sahələrdə əldə olunan böyük uğurlarla tarixə düşür. Bu nailiyyətlərin əldə edilməsində müstəsna rolu olan dövlət proqramları regionların iqtisadi potensialının əhəmiyyətli dərəcədə artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin daha da yaxşılaşmasına, müasir müəssisələrin açılmasına səbəb olmuş və Azərbaycanı bütün bölgələrində dinamik tərəqqi yaşanan bir ölkəyə çevirmişdir.

16 illik Prezidentliyi dövründə Cənab İlham Əliyev xalqın etimadını əməli fəaliyyəti, xeyirli və gərəkli işləri ilə doğruldub. Prezident İlham Əliyevin apardığı siyasət nəticəsində, ölkəmizdə orta aylıq əməkhaqqı 7, minimum əməkhaqqı isə 6,5 dəfə artıb. Təbii ki, əhalinin sosial cəhətdən qayğıya ehtiyacı olan təbəqəsinin, şəhid ailələrinin, əlillərin, qaçqın və məcburi köçkünlərin problemləri daim diqqət mərkəzində saxlanılıb. Prezident İlham Əliyevin ötən il keçirilən prezident seçkilərində qələbə qazandıqdan sonra imzaladığı ilk Fərmanın şəhid hərbi qulluqçuların vərəsələrinə birdəfəlik ödəmələrin verilməsi haqqında olması deyilənlərin əyani sübutudur. Onu da vurğulamaq lazımdır ki, bütün şəhid vərəsələrinə birdəfəlik ödənişlərin verilməsi prosesi bu il ərzində başa çatdırılacaq. Bütün bunlar ölkə əhalisinin sosial vəziyyətlərinin yaxşılaşmasına və özlərini güvənli hiss etməsində daha geniş imkanlar yaradır.

### Xalqın rifahı faktorunda İlham Əliyev LİDERLİYİ amili

Çünki Prezident İlham Əliyevin 16 illik Prezidentlik fəaliyyətində həyata keçirdiyi sosial-iqtisadi və siyasi islahatlar müasir Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirib, regional gücünü və qlobal əhəmiyyətini kifayət qədər artırmış olub. Ancaq daha bir fakt budur ki, tale hər bir xalqa bu cür mühüm xarizmalara sahib ola biləcək lider bəxş etmir. Nə xoşdur ki, Azərbaycan xalqı Ümummilli Lider Heydər Əliyev dühasının tarixi liderliyini qəbul etməklə, yaşatmaqla bərabər, hazırda Onun layiqli davamçısı Cənab İlham Əliyev Liderliyi dövrünü yaşayır! Bununla yanaşı, Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan strateji kurs daxili ictimai-siyasi sabitliyi və tərəqqini də ən yüksək səviyyədə təmin edib.

Prezident İlham Əliyev tarixi çıxışlarının birində vurğulayıb ki, Azərbaycan bu gün dünya üçün çox önəmli tərəfdaşa çevrilib: "Bu gün Azərbaycanın dünyada artan hörməti, eyni zamanda, bizim prinsipial mövqeyimizdən qaynaqlanır. Bizim tərəfdaşlarımız bilirlər ki, Azərbaycan etibarlı tərəfdaşdır. Bizim sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur".

Bəli, bu həqiqətən də, belədir! Bu gün Azərbaycan xalqı, ilk olaraq öz Liderinə arxalanır, Xalqımız isə, məhz öz sevimli Prezidenti ətrafında daha da sıx birləşərək, ölkənin inkişaf və tərəqqisində inamla irəliləyir. BU YOL İSƏ ƏBƏDİ VƏ DÖNMƏZDİR!

# Ermənistanda homoseksualların sayı sürətlə artır

## Qalust Qriqoryan: “Transgender Lilit Martirosyanın parlamentdəki çıxışı hakimiyyətə qarşı detonator kimi istifadə edilir”

***Nə qədər erməni ordusundakı atmosfer pisləşəcəksə, bir o qədər də erməni iqtisadiyyatındakı situasiya daha güclü şəkildə dərinləşəcək, bir o qədər də Ermənistanda geylərin sayı artacaq. Bu barədə “armenianreport” saytının siyasi yazarı Qalust Qriqoryan öz məqaləsində qeyd edib. Erməni şərhçiyə görə, ötən həftə Ermənistan parlamentinin binasının divarları arxasında insan haqları üzrə komissiyasının sədri Naira Zohrabyanın transgender Lilit Martirosyanla arasında baş verənlər və birincinin seksual azlıq nümayəndə qrupunu zaldan qovması erməni ictimai rəyində böyük müzakirələrə səbəb olub.***



“Artıq erməni KİV-ləri və sosial şəbəkə seqmentləri, sözün həqiqi mənasında, qaynar debatlarda iştirak edirlər, Ermənistanda LGBT-nin mövcudluğu erməni mənəviyyatına nə dərəcədə cavab verir” deyə yazan Qriqoryan, əlavə edib ki, əslində, LGBT Ermənistan üçün yeni deyil, heç olmasa İrəvanda gey-paradın keçirilməsi cəhdi, xüsusilə, Lilit Martirosyanın parlamentdəki çıxışı hakimiyyətə qarşı detonator kimi istifadə edilir: “Alovun üzərinə yağı Ermənistanın apostol kilsəsinin Ararat Yeparxiyasının informasiya şöbəsinin rəsmisi Yesai Artenyan tökub. O, son vaxtlar Ermənistanda homoseksualların sayının sürətlə artdığını bildirib. Baxmayaraq ki, erməni kilsə xadimi bunu Qərb dəyərlərinin müdaxiləsinin nəticəsi kimi qiymətləndirir, biz onunla razılaşmaya da bilərik. “Dəmir pərdə” hələ SSRİ vaxtında aradan qaldırılıb, 80-ci illərin sonlarında və Qərb dəyərləri, hələ İttifaqın dağılması ərəfəsində Ermənistana daxil olmağa başladı. Lakin o zamanlar, bu gün Ermənistanda mövcud olan geylərin sayı qədər deyildi və bu, açıq-aydın görünür, eləcə də, iki digər səbəbə görədir ki, biz bu gün onları bir daha nəzərdən keçirəcəyik”.

### Gənclər hərbi xidmətdən yayınmaq üçün gey olurlar: “Qarabağda top atəşinə qurban olan ət parçasına dönmək istəmirlər”

“Birinci səbəb - doğru və yalanlarla orduda xidmətdən yayınmaqdır. Son illər erməni ictimaiyyətində silahlı qüvvələrin nüfuzu aşağı düşüb. Ön cəbhədə olduğu kimi, arxa cəbhədə də hərbi əməliyyatlardan kənar çoxsaylı əsgər ölümləri, zabit heyətinin əsgərlər üzərində qəddarlıqları, genişmiqyaslı korrupsiya, “dedovşina”, normal qidalanmanın və xüsusilə, alt geyimlərinin olmaması - bütün bunlar erməni gənclərinin hərbi xidmətdən yayınmalarına təkan verir”.

Erməni şərhçi digər amillərə də toxunub: “Ermənistanda yaşam həddinin aşağı olmasına baxmayaraq, generalitetin əhlikef həyat tərzi də, hərbçilərə nüfuz qazandırmayıb. Buraya 2016-cı ilin aprel müharibəsini də əlavə etmək olar ki, bunun nəticəsində az erməni əsgəri həlak olmadı. Təbii ki, erməni yeniyetmələri bu cür orduda xidmət etmək və Qarabağda top atəşinə qurban olan ət parçasına dönmək istəmirlər. Hansı ailələrdə ki, maliyyə imkanları yetərincədir onlar öz oğullarını ya ordudan pula xilas edir, ya da arxa cəbhədə “elit” hərbi hissələrə düzəldirlər. Bəs ordudan qurtulmaq üçün imkanı olmayanlar, xarici ölkələrə köçə bilməyənlər nə etməlidirlər? Orijinal çıxış yolu tapılıb - erməni gəncləri kütləvi şəkildə geyliyə yazılırlar, belə ki, homoseksuallar hərbi xidmətdən azad olunurlar. Halbuki hələ 2003-cü ildə Ermənistanda homoseksuallığa görə cinayət işi açılırdı, 2008-ci ildə isə, ölkə BMT-də gender identikliyi və seksual orientasiyası deklarasiyasını imzalayıb”.

### Ermənistanda geyliyin ikinci səbəbi kimi Qərbdə qaçqın statusu almaq cəhdi göstərilir

“Əlbəttə, hərbi komissarlığı və tibbi komissiyanı aldatmaq elə də çətin deyil. Çünki psixoloji müayinələrə, psixiki xəstəliklərə aid nəticələr tələb edilir” deyə yazan erməni müəllif, eyni zamanda, erməni ictimaiyyətində heç kimin kəskin homofobiyanı - qeyri-ənənəvi seksual orientasiyaya malik şəxslərin cəmiyyətdə və Ermənistan ordusunda təzyiqlərə və alçaldılmalara məruz qalmasının dəyişmədiyini qeyd edib.

Ermənistanda homoseksuallığın artmasının ikinci səbəbi kimi, Qərbdə qaçqın statusu almaq cəhdi göstərilir, belə ki, bu ölkədə sosial-iqtisadi mühitin yaxşılaşması, ümumiyyətlə, görünmür: “Ən azından, yaxın illərdə. Ermənistan ictimaiyyətində homofobiyanın yüksək dərəcəsi onların işə qəbul edilmələri, ya da qovulmalarından, LGBT-yə üzv olmalarından, geylərin ünvanlarına edilən fiziki təhdidlərdən, homoseksualların ata evlərindən qovulmalarından görünür. Bütün bunlar erməni gənclərinin əllərinə oynayır ki, onlar seksual azlıq qismində Qərbə birdəfəlik köçmək qərarını veriblər. Hansı ki, LGBT üzvləri Qərbdə qaçqın statusunu asanlıqla alır, xüsusilə, Ermənistandan gedənlər.”



“Bax, bu iki əsas səbəbdəndir ki, Ermənistanda homoseksualların sayı artır. Hansı ki, Ararat yeparxiyasının din xadimi Yesai Artenyan bunu Qərbin təsiri kimi qiymətləndirir” deyə erməni şərhçi ölkəsində artan homoseksuallığın səbəblərini izah edərkən yazıb.

**Rövşən RƏSULOV**

## Bakıda evdən 9200 manatlıq qızıl əşyaları oğurlanıb

Bakıda evdən 9200 manatlıq qızıl əşyalar oğurlanıb. Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən Trend-ə verilən məlumata görə, Nizami RPİ 24-cü PŞ-nin əməkdaşları tərəfindən rayon ərazisindəki mənzillərin birindən 9200 manat dəyərində qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini S.Həsənova saxlanılıb.

## ABŞ Rusiyaya qarşı yeni sanksiyalar hazırlayır?

ABŞ Maliyyə Nazirliyi hesab edir ki, Rusiyaya qarşı sanksiyalar siyasəti öz müsbət nəticələrini verməkdədir. “Report” xəbər verir ki, bu fikri ABŞ-ın maliyyə naziri Stiven Mnuçin Konqresin Nümayəndələr Palatasının Təxsisatlar komitəsində keçirilən dinləmələrdə deyib. Onun sözlərinə görə, rəsmi Vaşinqton Moskvaya qarşı yeni sanksiyalar tətbiq etməyə davam edəcək.

“Sanksiyalar çox vacib alətdir. Hesab edirəm ki, biz bunu Rusiya əleyhinə çox səmərəli istifadə etmişik. Rusiyanı uyğun olmayan davranışlarını dəyişməsi üçün sanksiyalardan istifadə etməyi davam etdirəcəyik” deyə nazir bildirib.

## Dəm qazı 16 yaşlı qızın həyatına son qoyub

Sumqayıtda hamamdan 16 yaşlı qızın cəsədi tapılıb. Hadisə şəhərin, H.Z.Tağıyev qəsəbəsində baş verib. Şəhər Polis İdarəsindən AZƏRTAC-a bildirilib ki, qəsəbə sakini, 2003-cü il təvəllüdlü Həsənova Ceyranxanım Ehtiram qızı yaşadığı fərdi yaşayış evinin hamamında ölü vəziyyətdə tapılıb. Faktla bağlı Sumqayıt Şəhər Prokurorluğunda araşdırma aparılır.

# "Siyasi mühacir"lər ölkəmizə qarşı hürən əxlaqsızlardır

## Emin Milli yenə də antimilli çağırışlar edir



***Hər kəsə xaricdə məskunlaşmış "mühacir şəbəkəsi"nin anti-Azərbaycan mövqeyi, öz vətənlərinə, dövlətlərinə qarşı çıxmaları, çox çirkin kampaniya aparmaları məlumdur. Bu, hərəkət ölkə ictimaiyyəti tərəfindən çox böyük qınaqla qarşılanıb. Fakt budur ki, "mühacir şəbəkəsinə" məskunlaşdıqları ölkələrdəki Azərbaycanı sevməyən bəzi dairələr də dəstək verirlər. Zaman-zaman sapı özündən olan baltalarımız bütün normaları və sərhədləri aşaraq, separatçı çıxışlar da edirlər. Erməni lobbisinin dəstəyindən bəhrələnən Emin Milli və Xədicə İsmayıl kimi xəyanətkar əməllərindən əl çəkmirlər. Belə şəxslərin isə, Azərbaycan əleyhinə kampaniyalar təşkil etmələri normal müxalifətçilik mövqeyində olan tərəflərin də hiddətinə səbəb olmaqdadır.***

### "Meydan" TV rəhbəri xəyanətkar və satqınçılıq fəaliyyəti ilə məşğuldur"

Avropada mühacir həyatı yaşayan Zamiq Məmmədov adlı soydaşımız "Meydan" TV rəhbərinin xəyanətkar və satqınçılıq fəaliyyəti ilə məşğul olduğunu söyləyib: "E.Milli heç də xaricdə Azərbaycanın milli maraqlarını qorumur, əksinə, düşmən dəyirmanına su tökməklə, bu maraqları ayaq altına atır".

Artıq 13 ildən çoxdur ki, Avropada yaşadığını deyən Z.Məmmədli bildirir ki, hazırda Çexiya vətəndaşlığını daşımaqdadır. O, bu ölkədə siyasi şərhçi kimi fəaliyyət göstərir: "Ancaq bu gün E.Millinin, hansı məsləkə qulluq etdiyi bəlli olmadığı kimi, sağlam düşüncəyə də malik deyil. Bu gün "insan haqlarının müdafiəsi" E.Milli üçün artıq siyasi "biznes" predmetinə çevrilib və bu istiqamətdə fəaliyyət aparır". ".tınması istiqamətində təbliğat işləri aparır.

### Müşfiq Ələsgərli: ""Siyasi mühacir"lər idarə olunanlardır"

Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli "siyasi mühacirlərin" müəyyən qüvvələr tərəfindən idarə olunduğunu deyib: "Onlar özbaşına deyillər. "Siyasi mühacir"ləri ölkəmizə qarşı hürdürən qüvvələr var. Elə bunun qarşılığında da maraqları təmin olunur. Yəni onlar Azərbaycana qarşı şər-böhtan kampaniyası aparmaqla, xarici donor təşkilatlarından və Azərbaycanda siyasi sabitliyin pozulmasında maraqlı olan qüvvələrdən maliyyə yardımı alırlar. Yəni bunların marağı bu səviyyədədir ki, sifariş verənlərin sifarişini yerinə yetirsinlər, Azərbaycanda ictimai rəyi çaşdırsınlar, sabitliyin pozulmasına nail olsunlar və bunun qarşılığında sifariş verənlərdən külli miqdarda maliyyə vəsaiti alsınlar. Bu, açıq-aşkardır, yəni bütün bu gedən proseslər bunu göstərir və onların həm təbliğatı, həm ara dövrdə bir-birlərinə qarşı apardıqları mübarizə göstərdi ki, onların maraqları, əslində, vətəni satmaqla və bu cür çirkin işlər görməklə, sadəcə pul qazanmaqdır".

Xarici anti-Azərbaycan qüvvələrin əlində oyuncağa çevrilən, qul psixologiyalarından yaranan erməni sevgilərini, fürsət düşdükcə, açıq-aşkar nümayiş etdirənlər unudurlar ki, onlar yaxın zamanlarda ictimaiyyət tərəfindən ən böyük cəzaya məhkum olacaqlar. Onu da unudurlar ki, Vətənə, xalqa xəyanət heç kimə başucalığı gətirə bilmədiyi kimi, heç vaxt da bağışlanılmayacaq. Ən əsası isə, itirilmiş mənəviyyatlarını milyonlar xərcləsələr də, bərpa etmək imkanında olmayacaqlar. Bu gün bu əxlaqsız Bəxtiyar Hacılının da yenidən "meydana" həyasız və iyrənc üsullara böhtan yağdıraraq, bu əxlaqsız sosial şəbəkələrdə Azərbaycana qarşı "savaş" açmaq tapşırığını yerinə yetirir. Ancaq bir həqiqəti anlamır ki, nə qədər erməni sevgilərini nümayiş etdirsələr də, heç nə dəyişməyəcək. Çünki Avropa ölkələrinə sığınan və kif atmış təfəkkürlü bu əxlaqsız və bədbəxtlər ancaq idarə olunurlar. Zamanın hakimliyi, tarixin yaddaşı fonunda düşmən dəyirmanına su tökən belə ünsürlər bir reallığı da anlamalıdırlar ki, daim qınaq obyektinə çevriləcək, tarixin zibilxanalarının sakinləri kimi iylənərək, üfunət qoxusu verəcəklər. Çünki antimilli ünsürlər bu adı xəyanətləri ilə qazanıblar.

Dövlətimizin başçısı İlham Əliyevin səsləndirdiyi "Bu gün biz beynəlxalq arenada bütün məsələlərlə bağlı öz sözümüzü deyirik. Nəyə görə? Əlbəttə ki, güclü siyasi iradəyə görə, cəsarətli siyasətə görə, amma eyni zamanda, maliyyə imkanlarımıza görə. Əgər bu imkanlar olmasaydı, əgər biz bəzi ölkələr kimi, xarici donorlardan asılı olsaydıq, əgər biz yoxsul, səfil Ermənistan kimi orda-burda dilənsəydik, onda əlbəttə ki, bizim müstəqil siyasət aparmaq imkanımız da olmaya bilər, yaxud da ki, bu imkanlar məhdud ola bilərdi. Ona görə iqtisadi güc, maliyyə resurslarımız siyasi müstəqilliyimizi daha da möhkəmləndirir" fikirləri düşmən dəyirmanına su tökənlərə, həmçinin, onlara böyük məbləğdə maliyyə yardımı təklif edib, onları dövlətinə və xalqına qarşı xəyanət yolu tutmağa sövq edən dairələrə tutarlı cavabdır.

***Rəfiqə HÜSEYNOVA***

---

***Müxtəlif ölkələrdə gizlənərək, Azərbaycan dövləti və xalqı əleyhinə antitəbliğat kampaniyası aparan mühacirət həyatı yaşayan "söyüş qrupu"nun üzvləri olan şəxslər bəzən özləri-özlərini də ifşa etmiş olurlar. Misal kimi Rafael Piriyevlə Məhəmməd Mirzəli arasında ayrılan maliyyə vəsaiti üstündə bir-birini tənqid və təhqir etmələrini göstərmək olar. Bu günlər isə, qondarma vəkil Qurban Məmmədovun "Azərbaycan Xalq Hərəkatı" daxilində parçalanmaları genişləndirmək və rəqiblərini sıradan çıxarmaq yönümündə lent yazısı yayılıb. Sual yaranır, nəyə görə müxaliflər ancaq biri-birini sıradan çıxarmağa daha çox güclərini səfərbər edirlər? Söhbət etdiyimiz müsahiblərimiz müxalifəti bir neçə fondlar və qüvvələrin idarə etdiyini, bu səbəbdən də, pul bölgüsündə bir-biri ilə qarşıdurmaya getdiklərini bildirdilər.***

# Əli Kərimli ilə xaricdəki "söyüş qurupu" arasında qarşıdurma dərinləşir

### "Azadlıq Hərəkatçılar Birliyi"nin sədri Təhmasib Novruzov: "Qurban, İsgəndər, Əli və digərləri siyasi bizneslə məşğuldurlar"



- Çəlikli müxalifət düşərgəsində hələ də milli və dövlət maraqları haqqında düşünmək qabiliyyətində olan fiqur yoxdur. Siyasəti biznes tələbləri üzərində quran siyasi dəllallardan, başqa nəsə gözləməyinə də dəyməz. Bunların hər biri xaricdə özünə tərəfdar tapıb, Azərbaycan əleyhinə hay-küy salıb pul qazanmaq haqqında düşünürlər. Kimsə mənə müxalif yönümlü bir siyasi təşkilat göstərə bilərmi ki, o xalqın içinə getsin, xalqın problemlərini, bu problemlərin yaranma səbəblərini, onu aradan qaldırmağın yollarını arayıb-axtarsın, təkliflər irəli sürsün? Hamısının gözü xaricdəki anti-Azərbaycan qüvvələrin üzündədir. Hətta erməni olsa belə, onunla iş birliyi qurmağa, ölkəsinə hədyanlar yağdırmağa hazırdırlar ki, bunun da bir adı var - siyasi biznes! Biznesin də öz qanunları var və bu qanunlara görə, bir biznesmenin bazarına müdaxilə edən başqası onun boğazına şərik olur. Deməli, nəyin bahasına olursa-olsun, onu yolundan kənarlaşdırmalıdır. Bizim müxalifət deyilən siyasət dəllalları da, təbii olaraq, onların bazarlarına girənləri sıradan çıxarmağa çalışırlar. Qurbanın da, İsgəndərin də, Əlinin də, digərlərinin də son zamanlar sərgilədikləri mövqe onların gerçəkdən siyasi biznes fəaliyyəti ilə məşğul olduqları haqqında söylədiklərimizi bir daha təsdiq etdi.

### TOHGMİB-nın sədri Emin Həsənli: "Müxalifət dünən olduğu kimi, bu gün də yaramaz, əxlaqsız əməllərini davam etdirir"



- Birmənalı tərzdə demək olar ki, ələbaxım funksiyasını yerinə yetirən müxalifətin Azərbaycan cəmiyyətində heç bir sosial bazası yoxdur. Bu baxımdan, onlar xarici maraqlı dairələrlə iş birliyi qurmaqla, onlardan maddi və mənəvi dəstək almağa çalışırlar. Bu da, bir daha onu təsdiq edir ki, Əli Kərimlinin, Arif Hacılının, İsa Qəmbərin, Pənah Hüseynin və digərlərinin xarici görünüşləri, xüsusilə də, libasları və saçlarının rəngi dəyişsə də, düşüncələri ötən əsrin 90-cı illərin düşüncəsidir. Dünən olduğu kimi, bu gün də səhvlərini və yaramaz, əxlaqsız əməllərini davam etdirirlər. Xaricdə də maraqlı qüvvələr daxildə olan müxalifətə qrantlar və sifarişlər verirlər ki, ölkədə nə isə xoşagəlməz hərəkətlər etsinlər. Ona görə də, müxalifət təmsilçiləri öz düşərgələri daxilində digər rəqiblərini sıradan çıxarmaq üçün əllərindən gələni edirlər ki, xaricdən gələn maliyyə vəsaitini daha çox özləri mənimsəsinlər. Burada əsas məqsəd bundan ibarətdir. Yəni bu cür variantlarla həm ömürlərini uzatmaq, həm gündəmdə qalmaq, həm də ki, pul qazanmaq istəyirlər. Ümumiyyətlə, bu illər ərzində müxalifət düşərgəsini təmsil edən şəxslər heç vaxt bir-birilə tam səmimi olmayıblar. Onların bir-birilə səmimi olmamalarının başqa bir səbəbi də, həmin şəxslərin hər birinin özünü digərindən üstün tutması və şəxsi ambisiyalarının olması ilə bağlıdır. Bütün bunlar, onu deməyə əsas verir ki, müxalifət düşərgəsində yeni birliyin yaradılmasından söhbət gedə bilməz.

***GÜLYANƏ***

---

# "Breyn Rinq" izlə, "Nar"-dan hədiyyə qazan!

Təhsilə, elmə və maariflənmənin təbliğinə xüsusi önəm verən "Nar"-ın baş sponsorluq etdiyi "Breyn Rinq" intellektual bilik yarışlarının on üçüncü mövsümü davam edir. Hər il olduğu kimi, bu mövsüm də televiziya tamaşaçıları üçün xüsusi müsabiqə keçirilir. Beləki, yarışın yayımı zamanı "Nar"-ın "Facebook" hesabında qoyulan suala ən tez cavab verən izləyicilər xüsusi hədiyyələr qazanırlar. "Breyn Rinq" həvəskarları bu intellektual yarışı izləməklə yanaşı, "Nar"-dan hədiyyə qazanmaq şansı da əldə edirlər.



Mart ayının qalibləri olan "Facebook" istifadəçilərinin adları artıq məlumdur: Elşən Kazımov, Ceyhun Məhərrəmov və Əli Məmmədov. Qeyd edək ki, "Breyn Rinq" bilik müsabiqəsində respublikanın 17 bölgəsi və 11 ali məktəbini təmsil edən 34 komanda iştirak edir. Yarışlar hər həftənin bazar günü saat 20:00-da İctima Televiziyada yayımlanır. İntellektual oyunun qalibi iyun ayında məlum olacaq və qalib komanda "Nar" kubokunun sahibi olacaq.

Qeyd edək ki, "Nar" gəncləri stimullaşdırmaq üçün müxtəlif bilik yarışları, intellektual oyunları dəstəkləməyə çalışır və bununla da onların elmə, təhsilə, biliyə olan marağını artırmağa səy göstərir. Ətraflı məlumatı https://www.facebook.com/Narofficial hesabından əldə etmək mümkündür.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7400-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# Kim, hara və niyə satılır?

## Yaxud "Milli Şura"-"REAL" qarşıdurmasından doğan danılmaz reallıqlar

***Son günlər "Milli Şura" və "REAL" partiyası arasında yaşanan dava-dalaşın kökündə dayanan əsas ittihamlardan biri xəyanət və satqınçılıq üzərində dayanıb. Əslində, bu, elə də təəccüblü məsələ deyil. Ortada hər iki qurum təmsilçilərinin, daha dəqiq desək, rəhbərliklərinin istər fəaliyyət göstərdikləri müxalifət daxilində bir-birlərinə, istərsə də Azərbaycan dövlətinin və xalqının milli maraqlarına qarşı kifayət qədər xəyanətləri olub. Yəni xəyanət etmək onlar üçün, necə deyərlər, bir qurtum suiçimlik kimi bir şeydir.***





### Xəyanət etmək Əli Kərimlinin və Cəmil Həsənlinin alınlarına yazılıb!

Bu gün AXCP sədri Əli Kərimlinin monopoliyası altında fəaliyyət göstərən ölü qurumun - "Milli Şura"nın sədri Cəmil Həsənlinin də, digərləri kimi, "xəyanətkarsan" ittihamı ilə ortaya çıxması, əslində, Ə.Kərimlinin bir neçə gün öncə "REAL"-ı eyni ittiham etməsinin aşkar davamıdır. Məqsəd isə bəllidir: siyasi müxalifətdə baş qaldıran istənilən opponentə qarşı amansız müharibə elan edib, öz yerini kimsələrə qurban verməmək. Çünki fakt budur ki, hazırda AXCP sədri özünü həm partiya rəhbəri, həm də "Milli Şura" kontekstində "müxalifətin lideri" kimi ictimai rəyə sırıyır. Misal üçün, əgər uzun illərdir ki, Müsavat partiyası ilə AXCP-"Milli Şura" rəhbərliyi arasında antipatiya hissləri mövcuddursa, bu düşmənçiliyin əsasında "liderlik" və s. şəxsi ambisiyaların dayanması şübhəsizdir. Onlar üçün ittihamın ən rahat və asan forması isə "hakimiyyətə işləyirsən" ifadəsidir. Halbuki hakimiyyət dövlətin və dövlətçilik maraqlarının onurğa sütunu və dayaq mərkəzidir. Bu gün iqtidarın apardığı qətiyyətli, möhkəm iradəyə və xalq dəstəyinə söykənən siyasəti elə möhkəm təməllərə söykənir ki, cılız, zəif, köhnə təfəkkürdən ayıla bilməyən, hələ də çayxana müxalifəti kimi tanınan siyasətbazların ona işləməsinə, ümumiyyətlə, ehtiyac duymur. Daha doğrusu, ənənəvi müxalifətin bir-birini "hakimiyyətə işləyirsən, buna görə də xəyanət edirsən" suçlamaları ictimaiyyət üçün, sadəcə, boğazdan yuxarı deyilmiş söz təsirini bağışlamaqdadır.

Beləliklə, qarşılıqlı ittihamlar, suçlamalar, günahlandırmalar, daha nələr və nələrdən sonra, belə nəticəyə gəlmək mümkündür ki, reallıqda həmin məcrada çıxış edənlərin hərəsinin özünə görə bəlli və sübutlara söykənən xəyanətləri mövcuddur. Məsələn, kimsəyə sirr deyil ki, AXCP sədri Ə.Kərimli, elə ilk növbədə, "liderim" dediyi mərhum Əbülfəz Elçibəyə (!) hansı xəyanətləri edib, partiyanı neçə yerə parçalayıb, o cümlədən, zorla elə keçirdiyi AXCP sədri postunda oturaraq, təşkilatı hansı avtoritar üsullarla idarə edir.

### Məgər həmin isbatlamalar, bilavasitə Azərbaycan xalqına qarşı edilən xəyanətlər deyilmi? Biz hələ müxalifətdaxili xəyanətləri də buraya əlavə etsək...

O da, əbəs deyil ki, artıq internetdə və s. vasitələrdə "Yurd həqiqətləri" adlı kitabı yüzlərlə insanlar oxuyaraq, gerçəklikdə Ə.Kərimlinin nə qədər böyük xəyanətkarlıqlara əl atmasının şahidlərinə çevriliblər. AXCP sədrinin gah Qərb təşkilatlarına, gah İranın gizli xəfiyyələrinə, gah Rusiya kəşfiyyatına işləməsi barədə onlarla inkar edilə bilinməyəcək faktlar, dəlillər var və bütün bunların arxasında ona ödənilən qrantlar, vəd edilən "müxalifət lideri" məsələsi dayanır. Məgər həmin isbatlamalar, bilavasitə Azərbaycan xalqına qarşı edilən xəyanətlər deyilmi? Biz hələ müxalifətdaxili xəyanətləri də buraya əlavə etsək...

Baxın, Ə.Kərimlinin zaman-zaman iştirak etdiyi seçkilərdəki müxalifətdaxili xəyanətləri də hər kəsə məlumdur. Deputatlıq mandatını əldə etmək üçün işlətdiyi xəyanətlərindən tutmuş, blok və birliklərə etdiyi satqınçılıqlarına qədər. Biz, onun xəyanətlərinin sırasına dövlət maraqlarına (!) qarşı işlədilən xəyanətləri də qatsaq, bu fərdin, bütövlükdə xəyanət çamuru işində çabaladığını bağlı gözlə də görə bilərik.

O cümlədən, "Milli Şura"nın sədri C.Həsənli də, demək olar ki, eyni müstəvidən çıxış edən fərdlərdəndir. Onun da deputat mandatı üçün uzun illər təmsil etdiyi AXCP-nin ətəyinə tüpürüb, parlamentə getməsi həyatının çoxsaylı xəyanətlərinin tərkib hissəsidir. "Nə ət, nə balıq" prinsipi ilə, sözün həqiqi mənasında, ingilis bayrağı kimi sərf edən tərəfə əsən C.Həsənli artıq qatarının çoxdan getdiyinin fərqinə vararaq, ən azı, "Milli Şura"nın sədri kimi müqəvva postunda oturmaq üçün hansı ağır xəyanətləri desək, ona gedər. Ümumiyyətlə isə, xəyanət etmək Ə.Kərimlinin və C.Həsənlinin alınlarına yazılıb!

### Xəyanətdə ittiham olunan İlqar Məmmədovun milli satqınçılıqları yaxın tarixi həqiqətlərdə qalır

Maraqlısı da budur ki, "xəyanətkarsan", "satqınsan" ittiham atəşlərinə tutulan "REAL" partiyasının sədri İ.Məmmədovun da xəyanətləri az deyil. Biz, bu yaxınlarda əldə etdiyimiz bir neçə faktı dəyərli oxucularımızın diqqətinə çatdırmışdıq. İnternetdə İ.Məmmədovla bağlı hadisələri araşdırarkən, 2013-cü ildə dərc edilmiş maraqlı bir fakt nəzərimə çarpdı. Misal üçün, Moskva Dövlət Universitetinin tələbəsi olmuş azərbaycanlılardan biri bildirib ki, 1988-ci ildə, Dağlıq Qarabağ ətrafında məsələr qızışdığı dövrdə, MDU-nun birinci humanitar korpusunun mühazirə zallarından birində ermənilərin təşkilatçılığı ilə "Karabax naşa bol, naşa peçal" ("Qarabağ bizim ağrı, bizim kədərdir") mövzusunda dinləmələr təşkil olunub (mənbə: http://olaylar.az/news/siyaset/30187)

Qeyd olunur ki, Sumqayıt hadisələrindən dərhal sonra təşkil edilmiş bu tədbirdə erməni müəllim-tələbə heyəti və universitetin digər tələbələri iştirak ediblər. Həmin vaxt müzakirələrin hansı istiqamətə yönələcəyini ehtimal edən azərbaycanlı tələbələr də müzakirələrə qatılıblar. Dinləmələrdə çıxış edən ermənilər və onların tərəfdarları Azərbaycanı kəskin tənqid ediblər, azərbaycanlılar haqqında "qaniçən", "qəddar", "geridə qalmış", "barbar" və s. təhqiramiz ifadələr işlədiblər. Tədbirə qonaq qismində dəvət olunmuş "Oqonyok" jurnalının Çernov soyadlı əməkdaşının (onun 1998-2003-cü illərdə jurnalın baş redaktoru vəzifəsində çalışmış Vladimir Çernov olduğu ehtimal edilir) ermənilərdən də kəskin çıxış etməsi, azərbaycanlı tələbələrin emosional etirazına səbəb olub. Onlar Çernovun sözünü kəsiblər və faktiki olaraq, onu danışmağa qoymayıblar. Tədbir başa çatdıqdan sonra həmin dövrdə universitetin tarix fakültəsinin tələbəsi olan İ.Məmmədovun Çernova yaxınlaşaraq, "azərbaycanlıların qeyri-etik davranışına" görə ondan və onun yanında dayanan, tədbirin təşkilatçısı olan ermənidən üzr istədiyi bildirilir. Qeyd olunur ki, İ.Məmmədov həmişə azərbaycanlı tələbələrdən kənarda dayanıb, onlarla ünsiyyət qurmaqdan çəkinib, həmyerlilərimizin ümumi tədbirlərinə qatılmayıb. İ.Məmmədovun Azərbaycana qayıtdıqdan sonra bu qədər siyasi fəallıq göstərməsinin onun üçün də gözlənilməz olduğunu deyən mənbənin fikrincə, bunun arxasında başqa motivlər dayanır.

### O da zamanında AMİP-ə xəyanət edib

İ.Məmmədovun AMİP-dəki fəaliyyəti ilə də bağlı maraqdoğurucu faktlar mövcuddur. AMİP-dəki mənbə isə deyib ki, Moskva Dövlət Universitetində təhsilini başa vurduqdan sonra İ.Məmmədov Budapeştin Mərkəzi Avropa Universitetində təhsilini davam etdirib. Həmin ali məktəbdə təhsil aldığı dövrdə İ.Məmmədovun Qərbin müəyyən xüsusi xidmət orqanlarının və ya təşkilatlarının maraq dairəsinə düşməsi ehtimal olunur. Azərbaycana qayıtdıqdan sonra o, BDU-da çalışır, eyni zamanda, ABŞ-ın Azərbaycandakı səfirliyi ilə sıx əməkdaşlıq etməyə başlayır. Bildirilir ki, İ.Məmmədovun AMİP-ə yerləşdirilməsi və onun partiya sədrinin müavini vəzifəsinədək irəli çəkilməsində ABŞ səfirliyinin marağı olub. Belə ki, səfirlik İ.Məmmədov vasitəsilə həmin dövrdə ölkənin aparıcı müxalifət partiyalarından biri olan və kifayət qədər fəallıq nümayiş etdirən AMİP-i və onun sədri Etibar Məmmədovu nəzarətə götürməyə çalışıb. Maraqlıdır ki, 2003-cü il prezident seçkilərindən sonra AMİP-in fəaliyyətində durğunluq meyilləri gücləndi və E.Məmmədovun partiya sədri postunu tərk edəcəyi barədə məlumatlar yayıldıqdan sonra İ.Məmmədov öz vəzifəsindən istefa verdi. Nəticədə, İ.Məmmədovun fəaliyyətini idarə edən dairələr onun AMİP-də qalmasının səmərə verməyəcəyini düşünərək, onu başqa istiqamətdə fəallaşdırdılar. Bundan əvvəl isə, o, ABŞ-ın Azərbaycandakı səfirliyində işə götürüldü. Təsadüfi deyil ki, 2003-2007-ci illər arasında İ.Məmmədovun fəaliyyəti haqqında çox az məlumata rast gəlinir. Hətta internet araşdırmamız da qənaətbəxş nəticə vermir. 2008-ci ildə isə, məhz ABŞ-ın Azərbaycandakı səfirliyinin nəzarəti ilə Respublikaçı Alternativ ("REAL") hərəkatı yaradılır və İ.Məmmədov onun rəhbəri olur. Bütün bunlar və İ.Məmmədovun Avropa Şurasının Bakı Siyasi Biliklər Məktəbinin direktoru vəzifəsinə gətirilməsi, onun fəaliyyətinin Qərb dairələri tərəfindən idarə olunduğu qənaətini möhkəmlədir. Beləliklə, fakt budur ki, İ.Məmmədov fəaliyyətinin əsas hissəsini Azərbaycanın maraqlarına cavab verməyən siyasət üzərində qurub, hətta onun ermənilərə loyallığı da dəfələrlə sübuta yetirilib. Məgər bu faktların özü açıq-aşkar, necə deyərlər, kor-kor, gör-gör - xəyanət deyilmi?

Söz yox ki, xəyanət bundan artıq ola bilməz. Haqqında bəhs elədiyimiz xəyanətkarların satqınçılıq silsilələrini bir daha xatırladıqca, əslində, onların bir-birlərinə qarşı irəli sürdükləri ittihamlarının haqlı olduğunu deyə bilərik. Lakin bir məsələdə haqsızlıq və böhtançılıq edirlər. Bu gün nə xalq, nə də dövlət beləlirinin "əməyinə" heç bir ehtiyac duymur, bundan sonra da duymayacaq. Onların isə alınlarında xəyanət sözü damğa kimi qalacaq.

**Rövşən NURƏDDİNOĞLU**

## Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb



ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, aprelin 10-da Ağdam rayonu ərazisində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika, Saymon Tiller və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun (YSPQ) nümayəndəsi, polkovnik-leytenant Ralf Bosşard keçiriblər. Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik, onun səhra köməkçiləri Oqnyen Yoviç, Mixail Olaru və YSPQ-nin nümayəndəsi polkovnik Yuri Dudçenko aparıblar.

# Gender bərabərliyi strategiyası

***Azərbaycan postsovet məkanında gender bərabərliyi strategiyasını institusional qaydada təsbit edən ilk dövlətdir. Belə bir qurumun meydana gəlməsi, bir tərəfdən Azərbaycan Respublikasında dövlət qadın siyasətinin sistem yetkinliyindən xəbər verirsə, digər tərəfdən qadınların Mərkəzləşdirilmiş Dövlət İnstitutu vasitəsilə sosial-siyasi proseslərə daha fəal cəlb edilməsi niyyətinin əməli müstəviyə keçirilməsinə dəlalət edir.***

Sevinc Abbasova yazır: "2000-ci illərin əvvəllərində QPDK gender bərabərliyi məqsədlərini həyata keçirmək, Komitənin bu məqsədlərə nail olmağa yönəlmiş fəaliyyətini dəstəkləmək və hökumət və vətəndaş cəmiyyəti arasında gender məsələləri üzrə aktiv əməkdaşlığa kömək etmək məqsədilə qadın QHT-ləri və vətəndaş cəmiyyətinin qrupları ilə daha möhkəm əlaqələrin qurulmasına nail olmuşdu. Milli mexanizmin uğurlu fəaliyyətinə qadınların problemlərinin həlli və genderə dair ictimaiyyətin məlumatlılığının artırılmasına yönəlmiş layihələrin həyata keçirilməsi gender tədqiqat mərkəzlərinin yaradılması ilə təkan verilmişdir. Gender bərabərliyinin təmin olunması və qadınların imkanlarının genişləndirilməsi məsələsi sahəsində QPDK Parlament ilə birgə fəaliyyət göstərirdi. Belə ki, gender bərabərliyinin təmin olunması sahəsində qanunvericilikdə hansısa bir boşluq meydana çıxdığı halda" Komitə Parlamentlə birgə müzakirələr keçirirdi".

2000-ci ilin martında Komitə Bakı şəhərində olan qadın təşkilatları üçün qadın hüquqları, qadınların siyasətdə iştirakı və s. mövzular üzrə seminarlar təşkil etmişdi. Eyni zamanda, "Sənin hüquqların" mövzusunda müxtəlif rayonlarda və müəssisələrdə xüsusilə, seminarlar düzənlənmişdi. 2002-ci ildən etibarən QPDK Avropa Şurasının Qadınlar və Kişilər arasında Bərabərlik üzrə Rəhbər Komitəsi ilə əməkdaşlıqda demokratikləşmə, qadın hüquqları və siyasi və dövlət səviyyəsində qərar qəbul etmədə qadın və kişilərin balanslaşdırılmış iştirakına nail olunması mövzularında bir neçə birgə seminar keçirmişdi. Komitə, həmçinin, Avropa Şurasının Nazirlər Komitəsinin Qadınların Zorakılıqdan Müdafiəsi seksual istismar məqsədilə insan alveri, siyasi və dövlət səviyyəsində qərar qəbul etmədə qadın və kişilərin balanslaşdırılmış iştirakı tövsiyələrini Azərbaycan dilinə tərcümə etmiş və hökumət və qeyri-hökumət təşkilatları arasında yaymışdı. 1998-ci və 2003-cü ildə iki Milli Qadınlar Qurultayı keçirilmişdi. Bundan əlavə, Komitə BMTİP və Norveç Hökuməti tərəfindən dəstəklənən Gender Münasibətlərinə dair Milli İnsan İnkişafı Məruzəsi üzrə işə başlamışdı.

QPDK-nın fəaliyyətə başlamasından keçən müddət ərzində, ölkədə gender meynstriminqinin şərtləri gender maarifləndirməsi strategiyasından gender siyasətinin demokratikləşmənin mühüm tərkib hissəsi kimi tanınmasına doğru xeyli dəyişikliyə uğradı.

Azərbaycanda gender siyasətinin hüquqi-normativ bazasının möhkəmləndirilməsində mühüm hadisələrdən biri 2000-ci ilin martın 6-da Heydər Əliyev tərəfindən "Azərbaycan Respublikasında dövlət- qadın siyasətinin həyata keçirilməsi" haqqında Fərmanın imzalanması olmuşdur. Azərbaycan ictimai və ədəbi şüurunda qadın obrazının ülviliyi haqqında mühakimələrə başlanan bu Fərman hüquqi sənəd olmaqla yanaşı, eyni zamanda, ölkə başçısının gender həssaslığının növbəti şahidliyi idi. Azərbaycan mədəniyyətinin və elminin inkişafında, mənəvi dünyasının formalaşmasında qadınların müstəsna rolunu vurğulamaqla, Ümummilli Lider dolayı şəkildə tariximizin öyrənilməsində gender tarazlığının gözənilməsinə çağırırdı. Fərmanın önəmli cəhətlərindən biri də Azərbaycanda qadın hərəkatının, qadın aktivliyinin qırılmaz əlaqədə götürülməsi idi. Heydər Əliyev istər 1917-ci ilədək, istər xalq Cümhuriyyəti dönəmində, istərsə də Üçüncü respublikanın mövcud olduğu illərdə qadınların ictimai-siyasi fəallığı məsələlərini, habelə, qadın emansipasiyası problemini daxilən vəhdət təşkil edən proses kimi nəzərdən keçirir. Bu baxımdan, Ulu Öndərin ideyasiyasi dünyagörüşünün modernist təməl müddəalarını ehtiva edən bu Fərman onun 1974-cü il mayın 14-də "Azərbaycan qadını" jurnalının 50 illiyinə həsr olunmuş təntənəli yığıncaqda söylədiyi nitqində, habelə, hər il 8 mart ərəfəsində Azərbaycan qadınlarına ünvanlanan təbriklərində yer almış əsas tezislərlə səsləşir. Sözügedən dünyagörüşünün gender aspekti aşağıdakı mülahizədə özünün tutumlu ifadəsini tapırdı: "Azərbaycan qadınları XX əsrdə, qısa müddət ərzində, yüzilliklərə bərabər inkişaf yolu keçmişdir. Onların cəmiyyətdə, ictimai həyatda və ailədəki mövqeyində köklü dəyişikliklər baş vermişdir".

Müstəqillik illərində qadınların üzləşdikləri çoxsaylı problemlərdən bəhs edildikdən sonra Azərbaycan Respublikası Prezidentinin 14 yanvar 1998-ci il tarixli Fərmanının yerinə yetirilməsi yolunda problemlər açıqlanır: "Fərmanın yerinə yetirilməsi ilə əlaqədar respublika həyatının müxtəlif sahələrində, ayrı-ayrı nazirlik, idarə və şirkətlərdə, ümumiyyətlə, dövlət idarəçiliyi sistemində qadınların təmsil olunmasına dair əldə edilmiş statistik məlumat göstərdi ki, respublikanın 80-dən çox şəhər və rayon icra başçısından yalnız 5-i qadınlar və hətta əksər işçiləri qadınlardan ibarət olan dövlət qurumlarında və müxtəlif peşə sahələrində qərar qəbuletmə mövqelərində qadınlar çox zəif təmsil olunurlar. Şəhər və rayonlarda işçilərinin böyük əksəriyyətini qadınların təşkil etdiyi təhsil şöbələrinin 5-nə, səhiyyə şöbələrinin isə 8-nə qadınlar rəhbərlik edir. Respublikada müxtəlif səviyyələrdə qəbul olunan qanunvericilik aktları, qərar və qətnamələr, xüsusilə, Nazirlər Kabineti, ayrı-ayrı nazirlik və idarələrdə qəbul olunan qərarlar çox vaxt gender siyasətinin tələbləri baxımından ekspertiza olunmur".

Prezident Fərmanı ilə siyasi qərarların qəbulu prosesinə qadınların cəlb edilməsi ilə bağlı kompleks tədbirlər müəyyən edilmişdi. Bu sənəd respublikamızın bütün dövlət strukturlarında qadın və kişilər arasında bərabərliyin təmin olunmasını müvafiq dövlət proqramlarının hazırlanması ilə qaçqın və məcburi köçkün qadınların işlə təmin olunması, gender nöqteyinəzərindən qanunvericiliyə yenidən baxılmasını nəzərdə tutur. Nazirlər Kabinetinə ölkədə gedən iqtisadi islahatlar çərçivəsində həyata keçirilən işlərdə, gender siyasəti tələblərini rəhbər tutmaqla, qadınlar üçün kişilərlə bərabər imkanlar yaradılmasını təmin etmək tapşırılırdı. Sözügedən Fərmanı həyata keçirmək üçün hökumət strukturlarına gender məsələsi üzrə məsul şəxslər təyin olunurdu. Fərmana əsasən, Azərbaycanın bütün bölgələrində icra hakimiyyəti başçısının müavinlərindən biri qadınlardan təyin olunmalıdır.

Fərmanın həyata keçirilməsini nəzarətdə saxlamaq funksiyası Qadın Problemləri üzrə Dövlət Komitəsinə tapşırılmışdı, o isə, öz növbəsində, hər il Prezidentin Fərmanının həyata keçirilməsi haqqında müvafiq nazirliklər, idarə və müəssisələrdən toplanmış məlumat əsasında hesabat hazırlayaraq, Nazirlər Kabinetinə təqdim edirdi.

Beləliklə, 6 mart Fərmanı böyük ölçüdə hakimiyyət strukturlarında gender disproporsiyasını aradan qaldırmaq zərurətindən doğmuşdu və faktiki olaraq, ölkəmizin bərabər hüquqlardan bərabər imkanlara, yəni qadın hüquq və azadlıqlarının əməldə təmin olunmasına doğru irəliləyişində olduqca mühüm mərhələ sayıla bilər.

2000-ci ilin iyun ayında Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasında qadın məsələləri üzrə 2000-2005-ci illər üçün Milli Fəaliyyət Planı qəbul etmişdir. MFP-nin hazırlanması prosesində bütün hökumət strukturları, həmçinin, bəzi qeyri-hökumət təşkilatları iştirak etmişdi. Bu proqram milli prioritetləri nəzərə alaraq, qadınlarla əlaqədar müxtəlif növ problemlərin geniş spektrini əhatə edən Pekin Platformasının 12 strategiyası əsasında hazırlanmışdır. Müəyyən edilmiş strateji sahələr üzrə MFP-nin yerinə yetiriləcəyi 5 illik fəaliyyət müddətində 95 tədbirin gerçəkləşdirilməsi nəzərdə tutulmuşdu.

İqtisadi sahədə Pekin Fəaliyyət Platformasına uyğun "Qadın və məşğulluq" Dövlət Proqramının hazırlanması, qadın sahibkarlığının təşviqi, qadınların iqtisadi savadını artıracaq ixtisaslaşdırma və təkmilləşdirmə kurslarının təşkili, qadınların rəhbərlik etdiyi ev təsərrüfatlarına kömək etmək məqsədi ilə xüsusi proqramların hazırlanması, qadınlar arasında işsizliyin aradan qaldırılması məqsədi ilə fermer təsərrüfatlarının inkişaf etdirilməsi, qadın əməyinin yüngülləşdirilməsi üçün ictimai-iaşə və ticarət şəbəkələrinin genişləndirilməsi və s. tədbirlər görülməsi planlaşdırılırdı (ümumən 35 tədbir).

Təhsil sahəsində "Qadın və təhsil" Dövlət Proqramının hazırlanması, konstitusiyaya müvafiq surətdə təhsilin bütün sahələrində gender fərqlərinin aradan qaldırılması, təhsilin idarə olunmasında qadınların bərabər hüquqlarla iştirakının təmin olunması, təhsil müəssisələrində qadınlar arasında iqtisadi və hüquqi biliklərin artırılması məqsədi ilə yeni proqramların hazırlanması və geniş miqyasda istifadəsi, qadınların ali təhsil ixtisaslarına yiyələnmələri ilə bağlı onların texniki və iqtisadi sahələr üzrə tutduğu mövqe və potensialının aktivləşdirilməsi üçün təkliflərin hazırlanması və s. nəzərdə tutulmuşdu (ümumən 9 tədbir).

Qadın sağlamlığı sahəsində "Qadın və sağlamlıq" Dövlət Proqramının hazırlanması, azyaşlı uşaqları olan və hamilə qadınların əmək şəraitinin yaxşılaşdırılmasında dair təktiflərin hazırlanması, ailə planlaşdırılması mərkəzlərinin işinin təkmilləşdirilməsinə, sanitar-maarif işinin gücləndirilməsinə dair biliklərin kütləvi informasiya vasitələri ilə yayılması və təbliğ edilməsi, qadınların səhiyyə xidmətinin yaxşılaşdırılmasına kömək edən qeyri-dövlət qadın təşkilatlarının işinin dövlət tərəfindən dəstəklənməsinin mexanizminin işlənib- hazırlanması və s. tədbirlərin alınması ehtimal olunurdu (ümumən, 9 tədbir).

Qadınların zorakılığa məruz qalmaları ilə bağlı problemləri xüsusi sahə kimi ayrılırdı. Bu istiqamətdə görüləcək işlər sırasına "Qadın və zorakılıq" Dövlət Proqramının hazırlanması, qadınlara qarşı hər cür zorakılıq hallarının müxtəlif xüsusiyyətlərlə əsaslandırılmasının qarşısının alınması üçün tədbirlərin görülməsi, qadın əleyhinə olan cinayətlərin və digər hüquq pozuntularının statistik göstəricilərinin müəyyənləşdirilib ümumiləşdirilməsi və ictimaiyyətə çatdırılması, məişətdə, o cümlədən ailədə, cəmiyyətdə zorakılığa məruz qalmış qadınlar üçün müxtəlif növ xidmətlərlə təmin olunmuş sığınacaqların təşkil edilməsi və s. məsələlər daxil idi (ümumən, 6 tədbir).

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 11 aprel


## AzerTelecom Transxəzər magistralı layihəsinin icrasına başladı

Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayderi AzerTelecom şirkəti Azərbaycanın Regional Rəqəmsal Mərkəzə çevrilməsi üçün həyata keçirdiyi “Azerbaijan Digital Hub” proqramı çərçivəsində Transxəzər layihəsinin bir həssəsi olan Azərbaycan və Qazaxıstan arasında Xəzər dənizinin dibi ilə fiber-optik magistral kabel xəttinin çəkilişi layihəsinə başlayıb.

Bu məqsədləAzərbaycan tərəfdən AzerTelecom şirkəti və QazaxıstantərəfdənTranstelekom və KazTransCom şirkətləri arasında ümumi uzunluğu 380-400 km olacaq Transxəzər magistralının çəkilməsi ilə bağlı Konsorsium təsis edilib, birgə İşçi qrup yaradılıb, tikinti üzrə müvafiq müqavilə imzalanıb.

Layihənin icrası üçün Azərbaycan və Qazaxıstan arasında “Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının rabitə operatorları tərəfindən Azərbaycan-Qazaxıstan marşrutu üzrə Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xətlərinin birgə tikintisi, sahibliyi və istifadəsində müştərək fəaliyyətin təşkili haqqında”dövlətlərarası Saziş imzalanıb və müvafiq olaraq Azərbaycan dövləti tərəfindən təsdiqlənib.

Mühüm strateji əhəmiyyət daşıyan bu layihənin reallaşmasına nüfuzlu beynəlxalq konsaltinq və telekommunikasiya şirkətləri olan McKinsey and Company, Detecon, Axiom, DLA Piper, Huawei, PwC kimi şirkətlər də cəlb olunub.

Transxəzər fiber-optik magistralının çəkilişi AzerTelecom şirkətinin həyata keçirdiyi “AzerbaijanDigital Hub” (ADH) proqramının bir hissəsidir. Bu proqram çərçivəsində Transxəzər fiber-optik magistralının çəkilişiAvropa ilə Asiya arasında Azərbaycandan keçməklə rəqəmsal dəhlizin yaradılmasına mühüm töhfə verəcəkdir və Azərbaycanı regionun Enerji və Nəqliyyat mərkəzinə paralel olaraq həmçinin Rəqəmsal Mərkəzinə (Digital Hub) çevirəcəkdir.Transxəzər fiber-optik magistralının ümumilikdə regionun fiber-optik kabel infrastrukturunun inkişafında, Qafqaz,Yaxın Şərq, Orta Asiyavə Cənubi Asiya, eləcə də digər ətraf regionların yüksək sürətli internet bağlantısı və qabaqcıl rəqəmsal xidmətlərlətəmin edilməsində müstəsna roluolacaqdır.

Bu layihənin icrasıhəmçinin Çinin təşəbbüskarı olduğu “Belt and Road Initiative”(BRI) layihəsinə də öz töhfəsini verəcək və Azərbaycanı “Belt and Road Initiative” (BRI) layihəsinin telekommunikasiya dəhlizinə çevirəcəkdir.

Azərbaycanın Rəqəmsal Mərkəzə (Digital Hub) çevrilməsi ölkəmizin telekommunikasiya ekosisteminin dünya standartları səviyyəsinə çatdırılması, internetin Orta və Cənubi Asiya, Yaxın Şərq, eləcə də digər ətraf regionlara verilməsində tranzit ölkəvə Rəqəmsal Mərkəz olması deməkdir. Bu, həmçinin Azərbaycanın Avropa ölkələrindən Çinə qədər olan fiber-optik magistral infrastrukturu şəbəkəsində mərkəzi mövqe əldə etməsidir. Azərbaycanın “Digital Hub”a çevrilməsi ilə perspektivdə dünyanın İnternet xəritəsinəLondon, Frankfurt, Sofiya, İstanbul, Moskva, Amsterdam, Dubayiləyanaşı Bakı şəhəri də əlavə olunacaqdır. Layihə dünya miqyaslı qlobal rəqəmsal xidmətlər təchizatçıları olan korporasiyaların (Apple, Amazon, Alibaba, Google, Facebook, Netflix və s.) Azərbaycana gəlməsi, ölkəmizin kiber-təhlükəsizliyinin yüksəldilməsi, yeni iş yerlərinin açılması, kiçik və orta sahibkarlığın inkişafı,Qafqaz,Orta və Cənubi Asiya, Yaxın Şərq və digər ətraf regionlarda yaşayan 1.8 milyard əhalinin (dünya əhalisninin 1/4-i) internet və rəqəmsal xidmətlərlə daha yaxşı təmin edilməsi, bu region dövlətlərinə Azərbaycandan müxtəlif rəqəmsal xidmətlərin “Made in Azerbaijan” brendi altında ixrac edilməsinə öz töhfəsini verəcəkdir.

AzerTelecom Azərbaycanın dinamik şəkildə inkişaf edən telekommunikasiya operatorudur. Şirkət 2008-ci ildə təsis edilib və ölkənin ilk mobil operatoru - Bakcell şirkətinin törəmə müəssisəsidir.AzerTelecom ölkənin bütün əsas region və şəhərlərini əhatə edən şaxələnmiş və dayanıqlı fiber-optik kabel şəbəkəsinə sahibdir. AzerTelecom şirkətinin beynəlxalq şəbəkəsi isə dünya üzrə bütün əsas telekommunikasiya hablarına birləşir. Şikrət internetin topdan satışı, ayrılmış kanal xidməti, mobil şəbəkələrdə nəqletmə, beynəlxalq tranzit, DDoS hücumdan müdafiə, VPN, FTTx, Data Mərkəz xidmətləri, SİP telefoniya və digər telekommunikasiya xidmətləri təqdim edir.

## ELAN

**Azərbaycan Dövlət İqtisad Universitetinin Biznes və Menecmentlik Fakultəsinin 1-ci kurs tələbəsi Nəzrin Elçin qızı Qəhrəmanlının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

## Hacı Əliyev üçqat Avropa çempionu oldu!



Azərbaycanın daha bir sərbəst güləşçisi Rumıniyanın paytaxtı Buxarestdə keçirilən Avropa çempionatında qızıl medal qazanıb. Qol.az xəbər verir ki, 65 kq çəki dərəcəsində mübarizə aparan üçqat dünya ikiqat Avropa çempionu Hacı Əliyev finalda türkiyəli Selahəttin Kılıcsallayanı məğlub edib - 7:0. Bununla da idmançımız üçüncü dəfə Avropanın ən güclüsü adını qazanıb.

Daha bir sərbəst güləşçimiz Ağahüseyn Mustafayev (70 kq) finalda Mustafa Kaya ilə üz-üzə gəlib. Görüş türkiyəli idmançının qələbəsi ilə başa çatıb - 6:2.

97 kq-dakı Nurməhəmməd Hacıyev isə bürünc medal uğrunda görüşdə Makedoniya təmsilçisi Məhəmmədhacı Nurovu sınağa çəkəcək. Qeyd edək ki, bu gün Cəbrayıl Həsənov da Avropa çempionu olub. Onun rəqibi zədə səbəbindən final görüşünə çıxmadığı üçün idmançımız qızıl medala yiyələnib.

## Bədii gimnastika üzrə dünya kubokunda 39 ölkədən 200-dən çox idmançı qatılacaq




Aprelin 26-28-də Milli Gimnastika Arenasında bədii gimnastika üzrə dünya kuboku yarışları keçiriləcək. Batutçulardan və idman gimnastlarından sonra bu dəfə meydançanı gimnastikanın ən zərif nümayəndələri təhvil alaraq güclərini sınayacaqlar. AZƏRTAC Azərbaycan Gimnastika Federasiyasının saytına istinadla xəbər verir ki, ilkin qeydiyyat siyahısına əsasən, artıq 39 ölkədən 200-dən çox gimnastın kubok yarışlarında mübarizə aparacağı gözlənilir. Üç gün davam edəcək turnirdə 25 qrup komandası və 70-dən çox fərdi gimnast hakimlər qarşısına çıxacaq.

Yarışın ilk iki günündə təsnifat mərhələləri təşkil olunacaq. Həmçinin çoxnövçülük üzrə ən yüksək xal toplamış 8 fərdi gimnast, həmçinin qrup komandası final mərhələsinə adlayacaq. Aprelin 28-də isə həlledici final mərhələsinin qalibləri müəyyənləşəcək. Bununla yanaşı, ən çox icra xalını yığan gimnast və qrup komandasına ənənəvi “AGF Trophy” Kuboku da təqdim olunacaq.

## “Mançester Siti” uduzdu, “Liverpul” qələbə qazandı



Futbol üzrə UEFA Çempionlar Liqasında 1/4 final mərhələsinə start verilib. İlk oyun günündə keçirilən iki görüşdə üç İngiltərə klubu meydana çıxıb. “Liverpul” “Enfild”də “Portu”nu qəbul edib. Rəqibinə 2:0 hesabı ilə qalib gələn mersisaydlılar cavab matçı üçün sərfəli nəticə qazanıblar. Digər qarşılaşmada isə İngiltərə klubları üz-üzə gəliblər. “Mançester Siti” səfərdə “Tottenhem”in qonağı olub. Görüşün taleyini 1 qol həll edib. Son Xin Minin 79-cu dəqiqədə vurduğu qol London klubuna qələbə qazandırıb. Komandalar arasında cavab oyunları aprelin 17-də keçiriləcək. Qeyd edək ki, 1/4 finalın ilk oyunlarına sabah keçiriləcək iki görüşlə yekun vurulacaq.

## Avropa çempionatında ölkəmizi 10 qadın şahmatçı təmsil edəcək

Aprelin 11-də Antalyada qadın şahmatçılar arasında Avropa çempionatı start götürəcək. Azərbaycanı qitə çempionatında 10 şahmatçı - Günay Məmmədzadə, Xanım Balacayeva, Gülnar Məmmədova, Gövhər Beydullayeva, Zeynəb və Türkan Məmmədyarovalar, Ülviyyə Fətəliyeva, Xəyalə Abdulla, Fidan Ağasıyeva, Nərmin Söyünlü təmsil edəcəklər. On bir turdan ibarət olacaq yarışda ümumilikdə 32 ölkədən 130-dan çox şahmatçı mübarizə aparacaq. Turnirin reytinq favoriti rusiyalı şahmatçı Aleksandra Qoryaçkinadır (2534). Çempionatın ümumi mükafat fondu 60 min avrodur.


*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur

*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**